# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 88 (3412) Cümə axşamı / 2-8 dekabr 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Laçının azad edilməsindən bir il ötdü...



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı

***Laçının işğaldan azad olunmasından 1 il ötdü. Bu bir ilimizi bir gözümüz ağlayaraq, bir gözümüz gülərək yaşadıq. Ölkəmizə qarşı daxildən və xaricdən olan təsirlər səngimir. Belə bir reallıqda qələbə əzmi ilə yaşayan Azərbaycan insanı dekabrın 1-də torpaqların azad olunduğu günü qeyd edərkən perspektivə məhz azad torpaqlarından baxır və vəziyyət nə qədər gərgin olsa da, reallıqlara fərqli prizmadan yanaşır. Bu və ya digər məsələlərlə bağllı hafta.az-a müsahibə verən Laçından olan deputat Mahir Abbaszadə maraqlı fikirlər söyləyib.***

*Laçının azadlığının 1 illiyi ərəfəsində baş verən vertolyot qəzası gülən gözümüzün ağlamasına səbəb oldu*

Səh. 2

## Helikopter qəzası: cavablar "qara qutu"dadır

***14** hərbçinin şəhid olması, daha iki hərbçimizin yaralanması ilə nəticələnən Dövlət Sərhəd Xidmətinə (DSX) məxsus "Mİ-17" hərbi helikopterinin qəzaya uğraması hadisəsi Azərbaycan ictimaiyyətini sarsıtmaqla yanaşı, böyük rezonans yaratdı. "Mİ-17"nin eniş edərkən qəzaya uğramasına səbəb nə idi? "Mİ-17"lər texniki olaraq nə dərəcədə qəzaya həssasdır? Bu suallar indi hər kəsi düşündürür. Hadisənin təfərrüatları ilə bağlı aparılan istintaq hələ səbəbləri tam dəqiqləşdirmədiyi üçün sosial şəbəkələrdə bir sıra subyektiv iddialar ortaya atılır. Lakin dünən qəzada sağ qalan yaralı hərbiçilərimizin etirafları və mütəxəssislərin açıqlamaları qismən də olsa, helikopter qəzası ilə bağlı müəyyən təsəvvürün yarançasına şərait yaratdı. Artıq Azərbaycan qəzada həlak olan 14 hərbi şəhidini dünən son mənzilə yola saldı...*



### Yaralılar danışdı:

**polkovnik-leytenant Emil Cəfərov:** "Noyabrın 30-da praktik atışlı təlim məşq uçuşları olmalı idi. Səngəçal aerodromundan "Qaraheybət" aviasiya poliqonuna getməli idik. Helikopter enişi yerinə yetirən zaman qəza baş verdi. Helikopterdə heç bir nasazlıq olmayıb. Helikopter yerə çırpılan



zaman ikimiz də bayıra atıldıq. Başqa heç nə yadımda deyil. Heç bir şübhəli məqam yox idi. Nə küləklə, nə də yüklə bağlı heç bir məhdudiyyət aşılmayıb. Qəza zamanı ayağım əzilib və sol qolumda sınıq var.

**kapitan Ramin Ədilov:** "Helikopterdə 24 nəfər əyləşə bilər. 16 nəfər şəxsi heyət vardı. Hər şey qaydasında idi. Eniş zamanı birdən-birə idarəetməni itirdik, sürətlə yerə çırpıldıq. Helikopterin qəzaya uğraması ilə bağlı hər hansı bir kənar müdaxilə istisnadır. Üzümdən xəsarət almışam və dizim əzilib.

**Kamran Əliyev**
**Baş prokuror, I dərəcəli dövlət ədliyyə müşaviri:**

- Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin Mİ-17 tipli helikopterinin təlim uçuşu yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olan hərbçilərimizin ailələrinə, yaxınlarına öz adımdan və Baş Prokurorluğun kollektivi adından başsağlığı verirəm, xəsarət alanlara şəfa diləyirəm. Bu faktla bağlı artıq cinayət işi başlanıb. Dövlətimizin başçısı İlham Əliyevin tapşırığı əsasında cinayət işi tam və hərtərəfli araşdırılacaq, bu hadisənin bütün səbəb və şəraiti istintaq zamanı öyrəniləcək. İstintaqın gedişi barədə Azərbaycan ictimaiyyəti ətraflı və mütəmadi məlumatlandırılacaq. Təəssüf hissi ilə qeyd edirəm ki, bəzi şəxslər tərəfindən bu hadisədən siyasi məqsədlər üçün sui-istifadə hallarına cəhdlər göstərilir, heç bir fakta söykənməyən əsassız şayiələr yayılır. Bununla bağlı bildirirəm ki, bu kimi şəxslər barədə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ən sərt tədbirlərin görülməsi təmin ediləcək. Bu faciədən siyasi məqsədlər üçün istifadə edilməsi yolverilməzdir.

> "*Bu faciədən siyasi məqsədlər üçün istifadə edilməsi yolverilməzdir*"

**Şair Ramaldanov, hərbi ekspert**

- Hazırda istintaq gedir. Yaxın günlərdə "Mİ-17" helikopterinin qəzaya düşməsi səbəbini biləcəyik. Artıq "qara qutu"lar de-şifrə olunur. «Mİ-17» özünü həmişə etibarlı bir helikopter kimi göstərib və ən çox satılan hərbi-hava nəqliyyatından biridir. "Mİ-17" helikopterinin sərnişin tutumu 25 nəfərə qədərdir. Çoxsaylı dövlətlər o helikopterdən istifadə edir, o cümlədən də Azərbaycan. İstər helikopterlərin, istərsə də təyyarələrin istehsal və istismarı zamanı təhlükəsizlik tələbləri çox ciddidir. Texniki vəziyyət daim nəzarət altında saxlanılır. Verilən məlumatlara görə, qəzaya düşən helikopterdə də reqlamentə uyğun bütün texniki tələblər tam şəkildə yerinə yetirilib. Nasazlıq baxımından problemi olmayan bir helikopter olub. Ümumiyyətlə, "Mİ-17" helikopterinin havaya qalxmasına xüsusi icazə alınır. Xüsusi icazəyə təyarrə və helikopterin tam uçuşuna məhdudiyyətin olmadığı halda verilir. Bu həm texniki, həm də təhlükəsizlik baxımından ciddi prosesdir. Uçuşdan sonra daim dispetçerlə əlaqə qurulur. Helikopterin saxlanılma yeri nəzarət altındadır, daim qorunur. İctimaiyyəti bir qədər diqqətli davranmağa dəvət edirəm. Cinayət işi qaldırılıb, mütəxəssislər bunun üzərində işləyirlər. Komissiya yaradılıb və məsələ Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab Prezidentin şəxsi nəzarəti altında araşdırılır. "Qara qutu"lar açılıb istintaqa təqdim olunandan sonra bütün qaranlıq məsələlərə cavab tapılacaq. Hazırda hamımız, cəmiyyət olaraq şəhidlərin ailələrinin ətrafında olmalıyıq. Şəhdlər Xiyabanında dəfn mərasimində həddən artıq insan var idi.

Bu da onu göstərir ki, Azərbaycan cəmiyyəti o ailələri tək qoymur. Hər bir yanlış versiya şəhidlərin yaxınların əsəblərinə və həssas məqamlara toxunan amildir. Helikopterin köhnə olduğunu deyənlər yanılır. Azərbaycandakı helikopterlər Vətən müharibəsində də iştirak ediblər. "Mİ-17" helikopterini idarə edən heyət çox peşəkar olub. Onun komandiri 1-ci dərəcəli, respublikada ən təcrübəli pilot-polkovnik kimi I-II Qarabağ savaşında iştirak edib. Şəhidlərə Allahdan rəhmət, yaxınlarına da səbir diləyərək gözləməliyik.

> "*"Qara qutu"lar açılıb istintaqa təqdim olunandan sonra bütün qaranlıq məsələlərə cavab tapılacaq*"

### Qəzada həlak olan hərbiçilərimiz

**1. polkovnik Cavadov Fizuli Əli İbram oğlu;**
**2. polkovnik Nəzirov Emil Nəzir oğlu;**
**3. mayor Həsənov Elmir Mircəlil oğlu;**
**4. mayor Əhmədov Elbrus Səmrəddin oğlu;**
**5. mayor Mayılov Emil Şahid oğlu;**
**6. mayor Məmmədov Murad Yaşar oğlu;**
**7. mayor Əliyev Emil Elman oğlu;**
**8. tibb xidməti kapitanı Əhmədxanov Ceyhun Xanlar oğlu;**
**9. kapitan Bayramlı Cavid Əhliman oğlu;**
**10. kapitan Əliyev Xəyyam Əlixan oğlu;**
**11. kapitan Qaraisayev Teymur Ənvər oğlu;**
**12. leytenant Süleymanov Abdulla Telman oğlu;**
**13. baş leytenant Nağıyev Fərid Təyyar oğlu;**
**14. işçi Nəbiyev Elçin Fikrət oğlu.**

**Allah rəhmət eləsin**

MÜSAHİB



**Əfşar Süleymani,**
İranın Azərbaycandakı keçmiş səfiri

■ Bu vəziyyətdən sonra prezidentlər arasında görüşün belə tez keçiriləcəyini gözləmirdim...

■ Azərbaycan ərazisindən keçən Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyət göstərir, amma Ermənistan yolu alternativdir...

■ Moskva istəyirdi ki, 3+1 olsun, yəni üç Cənubi Qafqaz respublikası və özü...

Səh. 3

GÜNÜN FOTOSU...



**Şəhidlərlə vida mərasimi...**

GÜNÜN SİTATI

> "*Türk dünyasında bir türk şüuru oyanıb, yaxşı şeylər olur. Bunu Azərbaycanda və Özbəkistanda da gördüm*"



**Aziz Sancar,**
Nobel mükafatı laureatı

KARİKATURA




**Bakı - küləklər şəhəri...**

## Qəbulu gecikən Rəqabət Məcəlləsi

**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

2022-ci ildə Rəqabət Məcəlləsinin qəbulu ilə bağlı proseslər daha aktiv, müzakirələr daha intensiv olacaq.

Səh. 5

STATİSTİKA



■ **Azərbaycanda İİV-lə yaşayan 7867 nəfərdən 78,5 faizi 25-49 yaş qrupunda olan şəxslərdir.**

17 yaşa qədər olanlar isə 2 faizdir.

Terapiya nəticəsində hamilə qadınlarda bu virusa yoluxma faizi minimuma endirilir. Hətta 98 faiz halda effektli olur.



Səh. 3

## Qarabağın verilməsindən söz gedə bilməz

## PREZİDENTİN İŞ GÜNÜ



**Emin Zamin oğlu Hüseynov "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.** Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi vəzifəsi ləğv olunub.

***

**Prezident İlham Əliyev "Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 24 may tarixli 2656 nömrəli Sərəncamının ləğv edilməsi barədə Sərəncam imzalayıb.**

Sərəncama əsasən, "Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 24 may tarixli 2656 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 493) ləğv edilib.

***



**Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Nazarbayevə telefonla zəng edib.**

Prezidentin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, dövlətimizin başçısı 30 il bundan əvvəl Qazaxıstanın ilk Prezidenti seçilən Nursultan Nazarbayevi Qazaxıstan Respublikasının Birinci Prezidenti Günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev Nursultan Nazarbayevin müasir Qazaxıstan dövlətçiliyinin əsasını qoyduğunu vurğulayaraq qeyd edib ki, məhz onun müdrik siyasəti və yorulmaz fəaliyyəti nəticəsində ölkə müstəqillik qazandığı ilk günlərdən tarixi sınaqlardan çıxaraq bütün sahələrdə sürətli inkişaf yolu keçib, beynəlxalq aləmdə layiqli yerini tutub. Dövlətimizin başçısı Nursultan Nazarbayevlə xalqımızın ümummilli lideri Heydər Əliyev arasında dostluq əlaqələrinin ikitərəfli münasibətlərimizin möhkəm təməlini qoyduğunu vurğulayıb.

Təbrikə və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Nursultan Nazarbayev ümummilli lider Heydər Əliyevlə dostluğunu ehtiramla yad edərək qeyd edib ki, Ulu Öndərin müdrik və uzaqgörən siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu siyasət Azərbaycana bütün sahələrdə böyük nailiyyətlər qazandırıb. Nursultan Nazarbayev Vətən müharibəsində Azərbaycanın Qələbəsinin önəmini qeyd edib.

Prezident İlham Əliyev və Nursultan Nazarbayev ölkələrimiz, xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə ediblər.

Telefon söhbəti zamanı Nursultan Nazarbayev helikopter qəzası nəticəsində hərbi qulluqçularımızın həlak olması ilə əlaqədar Prezident İlham Əliyevə başsağlığı verib. Azərbaycan Prezidenti başsağlığına görə minnətdarlığını bildirib.

# Laçının azad edilməsindən bir il ötdü...

## Zəngəzur

***Laçının işğaldan azad olunmasından 1 il ötdü. Bu bir ilimizi bir gözümüz ağlayaraq, bir gözümüz gülərək yaşadıq. Ölkəmizə qarşı daxildən və xaricdən olan təsirlər səngimir. Belə bir reallıqda qələbə əzmi ilə yaşayan Azərbaycan insanı dekabrın 1-də torpaqların azad olunduğu günü qeyd edərkən perspektivə məhz azad torpaqlarından baxır və vəziyyət nə qədər gərgin olsa da, reallıqlara fərqli prizmadan yanaşır. Bu və ya digər məsələlərlə bağllı hafta.az-a müsahibə verən Laçından olan deputat Mahir Abbaszadə maraqlı fikirlər söyləyib.***



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı

*"Laçının azadlığının 1 illiyi ərəfəsində baş verən vertolyot qəzası gülən gözümüzün ağlamasına səbəb oldu*

***- Mahir müəllim, bu gün Laçın azaddır, gözünüz aydın. Laçının indiki vəziyyətini necə təhlil etmək olar?***

- 30 illik vətən həsrətinə, dekabrın 1-i, 2020-ci ildə son qoyuldu. Biz işğal altında olan bütün torpaqları Azərbaycanın müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun şücaəti, Şəhidlərimizin qanı, qazilərimizin sağlamlığı hesabına azad etdik.

Laçın rayonunun çox böyük strateji əhəmiyyəti var. Bilirsiniz ki, uzun müddət beynəlxalq danışıqlarda Laçın rayonu mövzu olaraq qalırdı. Bəzən də Qarabağ məsələsinin həll olunmamasının əsas problemlərindən biri kimi, Laçınla bağlı razılığa gəlinməməsi qeyd olunurdu.

Xatırlayırsınızsa, 2020-ci il dekabrın 1-i cənab Prezident də televiziya ilə xalqa müraciət edərkən bu nüanslara toxundu. Prezident qeyd etdi ki, biz böyük danışıqlardan sonra Laçın rayonunun dəhliz olan hissəsinin, təxminən, 5 kilometr olması ilə bağlı razılığa gələ bildik. Ermənistan tərəfi dəhlizin 30-35 kilometr olması ilə bağlı təkliflər irəli sürürdü. Amma təbii ki, Ermənistan məğlub tərəf olduğu üçün Azərbaycanın nəzərədə tutduğu bütün şərtləri qəbul etdi.

Bu illər ərzində Laçın rayonunun əhalisi, laçınlılar bütün Azərbaycan xalqı kimi bu qələbənin təsiri altındadır. Biz ikiqat sevinc içərisindəyik. Laçın rayonunun insanları bu 1 il ərzində təhlükəsizlik məsələləri həll edildikcə, ərazilər minalardan təmizləndikcə, sərhədlərimizdə davamlı təhlükəsizlik problemləri həll olunduqca, gedib öz ata-baba torpaqlarını ziyarət edirlər. Oradan Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevə, eyni zamanda Azərbaycan Ordusuna təşəkkürlərini bildirirlər. Digər tərəfdən, bu bir il ərazində cənab Prezidentin və Mehriban xanımın Laçın rayonuna iki dəfə böyük səfərləri təşkil olunub. Cənab Prezident o səfərlər çərçivəsində Azərbaycanın üçrəngli bayrağını Laçın rayonunda qaldırıb. Bu bayrağın qalxması bir tərəfdən düşmənlərimizə və onların havadarlarına verilən bir mesajdır ki, artıq Laçın azaddır və burada üçrəngli bayrağımız dalğalanır. Bir tərəfdən də cənab Ali Baş Komandanın o rayonlara səfərləri hər dəfə bizim yaddaşımızda ya yeni layihələrin təməlqoyma mərasimləri kimi, ya da təmirdən sonra istifadəyə verilməsi kimi qalır. Bu bir il ərzində Laçında su elektrik stansiyası istifadəyə verilib, Laçın rayonunun Qorçu kəndində hava limanının təməqoyma mərasimi keçirilib. Həmin hava limanından İstisuya və Qaragölə gələcəkdə turizmin inkişafı ilə bağlı məsələləri həll etmək çün böyük yollar çəkilib. Eyni zamanda, Laçın rayonunda Ermənistanla sərhəddə yerləşən hərbi yol və su ehtiyatlarını təmin etmək məqsədilə həmin hərbi hissələrə yollar, sular çəkilib. İnfrastruktur layihələri bu gün də davam etdirilməkdədir. Digər rayonlarda olduğu kimi, Laçın rayonunda da baş planın hazırlanması məsələsi artıq yekunlaşmaq üzrədir. Kəndlərin kompleksləşdirilməsi, birləşdirilməsi və böyük qəsəbələrin tikintisi ilə bağlı artıq kifayət qədər hazırlıq işləri görülüb və bu il Azərbaycan Respublikasının dövlət büdcəsindən işğaldan azad olunan rayonların bərpası ilə bağlı ayrılmış 2,2 milyarddan artıq vəsaitdən də artıq müəyyən vəsait ayrılacaq ki, bu ərazilər bərpa olunsun, yaşayış məntəqələri salınsın və 30 il bu rayondan məcburi köçkün düşmüş, Azərbaycanın 58 rayonuna dağılmış, getdiyi yerlərdə müəyyən mənalarda nənəvi əziyyətlər çəkmiş insanlarımız axır ki, öz ata-baba yurdlarına qayıtsın, yaşasın yaratsın və bundan sonrakı həyatlarını Laçın rayonu ərazisində qursunlar.



***- Məlumdur ki, Laçın və daha iki rayonumuz - Kəlbəcər və Ağdam 2020-ci il 10 noyabr üçtərəfli atəşkəs bəyanatı əsasında bir güllə atılmadan azad olundu. Hazırda sərhədlərin müəyyənləşməsi istiqamətində diplomatik danışıqların getdiyi, ən əsas da torpaqların azadlığının 1 ilini qeyd etdiyimiz bir zamanda vertolyiot qəzasında 14 zabitimizi itirdik. Yenə şəhidlər verdik. Belə bir ərəfədə cərəyan edən gərgin prosesə, elə laçınlıların özünə hansı təsirini göstərmiş oldu?***

- Qeyd edildiyi kimi, Laçın rayonu və digər iki rayonumuz Ermənistan tərəfi kapitulyasiya aktına qol çəkdikdən sonra bir güllə atılmadan işğaldan azad olundu. Ermənistan tərəfi buna məcbur edildi. Amma qeyd etmək lazımdır ki, Laçın rayonunun bəzi kəndləri hərbi güclə, böyük mübarizə nəticəsində azad olundu.

O zaman cənab Prezident özünün twitter səhifələrində yazırdı ki, Laçın rayonunun Güləbird, Aşağı Fərəcan, Yuxarı Fərəcan, Türklər, Səfiyan, Aşağı Cicimli, Yuxarı Cicimli, Qazıdərəsi kəndləri Azərbaycan ordusunun apardığı döyüşlər nəticəsində işğaldan azad edilmişdi. Laçının işğaldan azad edilməsi həm Azərbaycan diplomatiyasının, həm də Azərbaycan Ordusunun qələbəsi kimi qiymətləndirilməlidir. Əsas odur ki, bu gün Laçın azaddır və o insanlar da öz azad torpaqlarında azad nəfəs ala bilirlər.

Belə bir ərəfədə 14 zabitimizin şəhid olduğu vertolyot qəzası ilə bağlı yaşadığımız faciə əslində bütün Azərbaycan xalqını sarsıtdı. Burada Azərbaycan Ordusunun silahlı qüvvələrinin kifayət qədər yüksək rütbəli zabitləri həlak olublar. Onların bəziləri Vətən müharibəsində qəhrəmanlıq göstərən hərbçilərimizdir. Bəziləri orden və medallarla təltif ediliblər. Bu bizim üçün böyük bir itkidir. O hadisənin Laçın rayonunun işğaldan azad olunmasının 1 illiyi ərəfəsində baş verməsi bir tərəfdən gülən gözümüzün o bir tərəfdən ağlamasına səbəb oldu.

Artıq istintaq orqanları hadisəni araşdırır. Dövlət Sərhəd Xidmətinin rəhbəri Elçin Quliyevin mətbuata dediyi fikirlərini dinlədik. Eyni zamanda, Baş Prokurorun birirnci müavini bu məsələlərlə olan istintaq materialları ilə bizi tanış etdi. Qarşıda böyük bir istintaq prosesi olacaq. Çox arzulayırıq ki, istintaq prosesi çox doğru və düzgün aparılaraq, əgər bu hadisədə başqa bir izlər tapılarsa ortaya çıxsın. Amma hələ ki, hüquq mühafizə orqanları işləyir. Çox təəssüflər olsun, nədənsə tariximiz belə acı faciələrlə doludur. Bir tərəfdən, qələbələri qeyd edirik, başqa bir tərəfdən bəzən belə acı hadisələrlə üz-üzə qalırıq. Düşünürəm, istintaq prosesində bütün həqiqətlər ortaya çıxacaq.

***- Aparılan danışıqlarda "Laçın dəhlizi" məsələsi nə zamana qədər aktuallığını saxalaya bilər?***

- Ermənilərin bu gün apardığı əsas mübarizə ondan ibarətdir ki, "Laçın dəhlizi" indiki vəziyyətdə qalsın. 10 Noyabr sazişinin müddəalarında göstərildiyi kimi, Laçın dəhlizindən başqa alternativ bir dəhliz çəkilməlidir və bu dəhliz rus sülhməramlıları tərəfindən qorunmalıdır. Laçın şəhərinin faktiki dəhliz adlandırdığımız ərazisində Azərbaycan əhalisi yaşamağa davam etməlidir. Müqavilənin şərtlərində belədir.

Məndə olan məlumata görə, alternativ yolun çəkilişinin başa çatması 3 il ərzində nəzərdə tutulub və bu yolun müəyyən hissəsi çəkilib. Həmin yol Ermənistan ərazisinə birləşdirildikdən sonra şəhər boşaldılacaq. Ermənistanın apardığı mübarizə ondan ibarətdir ki, dəhliz olduğu kimi qalsın, amma bu qeyri-mümkündür. Müqavilənin şərtlərinə uyğun deyil.

Laçın və Kəlbəcər rayonlarında sərhəddə baş verən hadisələrdə şəhidlər verdik. Proseslərə diqqət yetirsək görəcəyik ki, bütün hadisələrdə, təxribatlarda Azərbaycan Ordusu düşmənin layiqli cavabını verib. Düşmən tərəf həm canlı, həm də texniki cəhətdən böyük itkilərə məruz qalıb. Eyni zamanda erməni hərbçilərinin əsir götürüldüyü də məlumdur. Biz sərhədlərdə möhkəmləndikcə, təbii ki, Ermənistan tərəfi də buna qarşı özünün tədbirlərini görür. Amma unudurlar ki, artıq Azərbaycan ordusu güclüdür. Öz hərbi potensialını artırmış, maddi-texniki bazasını möhkəmləndirmiş, eyni zamanda müasir silahlarla təmin olunmuş, digər tərəfdən böyük ruhu olan qalib əsgərlərdən ibarətdir. Ona görə də Azərbaycan Ordusu bu cür həmlələrin qarşısını almaqda davam edir.

O ki qaldı sərhədlərin dəqiqləşdirilməsi məsələsinə, bilirsiniz ki, Soçidə görüş zamanı həm Vladimir Putin, Nikol Paşinyan və cənab Prezident İlham Əliyevin imzaladığı sənədə əsasən bu məsələlər yaxın zamanlarda öz həllini tapmalıdır. Sərhədlər müəyyənləşməli, dəqiqləşməlidir. Mənə elə gəlir ki, sərhədlərlə bağlı məsələlər bitdikdən sonra bizim Ermənistanla sərhədimizdə davamlı təhlükəsizliyin və sülhün olması üçün söhbətlər gedə bilər.

Biz BMT, ATƏT, Avropa Şurasının Qarabağla bağlı çıxardığı qərarları 44 gün ərzində icra eləmişik, öz torpaqlarımızı geri qaytarmışıq. Biz regionda yeni realıqlar yarada bilmişik. Amerika, Avropa İttifaqı da bu prosesdən kənarda qalmaq istəmir. Ona görə də cənab Prezidentin və Nikol Paşinyanın Brüsseldə görüşü öncəsi Azərbaycana qarşı bəyanatlar verərərk prosesi gərgin vəziyyətdə saxlamaq nəzərdə tutulub. Mənə belə gəlir ki, biz nikbin olmalı, bir az səbirli davranmalıyıq. Mübarizə bitməyib. 30 il mübarizə apardıq və bunun nəticəsində 44 gün ərazində torpaqları işğaldan azad eliyə bildik. Bundan sonra da mübarizəmiz bütün cəbhələrdə - diplomatik, hərbi, iqtisadi, informasiya cəbhələrində mübarizələrimizi davam etdirəcəyik. Biz nə edək ki, bizim qonşular mənfur düşmənliyindən əl çəkmir. Ona görə də biz bundan sonra da mübarizələrə hazır olmalıyıq. Azərbaycanın yeni tarixi yazılıb. Azərbaycanın son 200 illik tarixində ilk dəfədir ki, torpaqlarımızı işğaldan azad edib geri qaytarmışıq.

Bu faktla müəyyən güclər, erməni lobbisi, erməni lobbisinin havadarlıq etdiyi müəyən güclər razılaşmaq istəmir. Ona görə də mübarizəmiz davam edəcək. Və Azərbaycanın bütün ərazilərində necə öz hakimiyyətimizi bərpa edə bilmişiksə, sərhədlərimizdə də sülhü və təhlükəsizliyi təmin edə biləcəyik.

***✍ Tahirə Qafarlı***

# Ermənistan istəməsə də, bu sənədlər imzalanacaq

**Vəziyyət hər gün dəyişir. Ermənistanın masada proseslərdən qaçmasına baxmayaraq, Azərbaycan sahədə öz işini görür. Bu gün faktiki olaraq sərhədlərin müəyyənləşməsi ilə bağlı ilkin işlər görülüb. Nə qədər maneə olmağa çalışsalar da, Azərbaycan Prezidenti dediyi kimi, heç kim bizi öz mövqeyimizdən çəkindirə bilməz. Bunu hafta.az-a Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev Soçidə baş tutan üçtərəfli görüşdən sonra yaranmış vəzxiyyətlə bağlı bildirib.**

*"Kommunikasiyaların açılması və başqa məsələlərdə Rusiyanın öz maraqları var*



**Fərəc Quliyev,**
Milli Dirçəliş Hərəkatı Partiyasnın sədri

Partiya sədri qeyd edib ki, bu gün Azərbaycanın müttəfiqi Türkiyə artıq bölgədə müəyyən məsələlərin həll olunmasına ciddi şəkildə əl qoyub. Onun fikrincə, bu gün Türkiyə-Rusiya münasibətləri elə bir səviyyədədir ki, ən çox maneə törədə biləcək Rusiya faktoru da aradan çıxıb.

"Kommunikasiyaların açılması və başqa məsələlərdə Rusiyanın öz maraqları var və bu maraqları təmin etmək üçün Ermənistanı toqquşmalara cəlb elədi və sülhməramlı imicini göstərməyə çalışdı. Bəllidir ki, Ermənistan Rusiyanın forpostudur. Rusiya artıq bu mövqeni qoyub ki, sərhədlər müəyyənləşməlidir. Bunun hansı xəritələr üzərində olacağı isə artıq müzakirə predmetidir. Kommunikasiyalar açılmalı, Zəngəzur dəhlizi ilə bağlı məsələlər həll olunmalıdır. Düşünürəm ki, 10 Noyabr bəyanatının 4-cü, 9-cu və digər bəndlərinə yavaş-yavaş əməl olunacaq". F.Quliyev hesab edir ki, bu müstəvidə müəyyən səbəblər üzündən prosesin uzanması ilə bağlı ortaya atılan fikirlər yanlış ehtimaldır. Partiya sədri, ümumiyyətlə sərhədlərin delimitasiyası, demarkasiyasının vaxt aparan məsələ olduğu qənaətindədir. "Azərbaycan-Gürcüstan sərhədlərində və yaxud başqa dövət sərhədlərində mübahisəli ərazilər olub və olacaq. Azərbaycan - Ermənistan sərhədi isə ümumiyyətlə olmayıb. Ermənistanla Azərbaycan arasında inzibati sərhədələr olub. Sovet dönəmindən, savaş başlayandan sonra ermənilər gəlib Azərbaycan ərazilərində yol salıb, kəndlər salıb, istədiklərini edib, əraziləri mənimsəyiblər. Ona görə də ermənilər delimitasiya və demarkasiyada maraqlı deyil. Bilirlər ki, bütün hallarda tutduqları yerdən geri çəkilməlidirlər. Buna görə də proses uzana bilər. Qeyd etdiyim kimi, Ermənistanın masadan nə qədər qaçmasına baxmayaraq biz sahədə işimizi görmüşük. Ona görə də kimin necə proqnoz verməsindən asılı olmayaraq artıq daşlar yerində oturub. Zəngəzur dəhlizinin açılması may ayına nəzərdə tutulur. Sərhədlərin delimitasiyası ilə bağlı xəritələrin tarixləri müəyyənləşir. Proseslər ağır getsə də bizim xeyrimizədir. Avropanın prosesə əl qoyması görüşlərin təşkili də bəzi fiqurların kənarda qalmamağını imtitasiya etsə də, Rusiya açardır. Putin deyəndə ki, xəritələr bizdədir, bu o deməkdir ki, açar bizdədir, onu başqa yerdə axtarmayın. Biz Rusiyaya çox reaksiya göstərmirik, çünki bizə nəticə lazımdır".

Partiya sədri qeyd edib ki, Azərbaycan imperiyaya daxil olanda hansı sənədlə daxil olubsa, o sənədlə də çıxmalıdır. "Putin özü də deyirdi ki, hansı ölkə hansı ərazi ilə SSRİ-yə daxil olubsa onunla da çıxmalıdır. O Krımın 1954-cü ildə Ukraynaya verilməsinə işarə edirdi. Amma bu bütün respublikalara şamil olunmalıdır. Ona görə də ermənilər bu məslədə çox narahatdırlar. Əslində məsələləri uzadan da bu amillərdir". Ermənistanda olan etirazlara və Avropa Şurasının Azərbaycan və Ermənistan rəsmilərini görüşdürmək istəklərinə toxunan partiya sədri aktivləşən maraqlı qüvvələrin Azərbaycan üçün narahatlıq yarada bilməyəcəyini qeyd edib.

"Paşinyan noyabrın ilk həftəsinə təyin olunan üçtərəfli görüşə gəlmədi. Azərbaycan tərəfi isə o görüşdə iştirak eləməkdən imtina eləmədi. Ona görə də görüşün başqa ölkədə keçirilməsi Rusiyanın Azərbaycana qarşı aqressiyası və yaxud da küsəyənliyinə gətirib çıxarmaz. Azərbaycan istənilən müstəvidə görüşə hazırdı. Əvvəla, biz qalib tərəfik, digər dərəfdən 10 Noyabr bəyanatının bütün bəndlərinə əməl eləmişik. Bəndlər Ermənistan tərəfindən icra edilmir və burda da günahkar Rusiyadır. Rusiya Ermənistanın bu bəndlərin icrasına məcbur eləməliydi. Bu bir il ərzində biz Laçın dəhlizini açdıq, onlar Zəngəzuru açmayıblar. Rusiya silahlıları regiona daxil olanda paralel erməni silahlıları ordan çıxmalı idi. Ona görə də diskonfort və qarşıdurma olacaqsa Ermənistan və Rusiya arasında olacaq".

F.Quliyev bildirib ki, bundan sonra aparılan müzakirələr hansı masada müzakirə olunursa olsun, Azərbaycan öz hədəfindən geri çəkilməyəcəyik.

***✍ Tahirə***

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az



# İran Ermənistanla birbaşa sərhədlərinin itməsini istəmir

## Aktual

***Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsi ərəfəsində Azərbaycan - İran münasibətlərində yaranan və sonrakı müddətdə daha da artan soyuqluq, deyəsən aradan qalxmaqdadır. Aşqabadda Azərbaycan və İran prezidentlərinin bir araya gələrək, ölkələrimizi və xalqlarımızı maraqlandıracaq xeyli məsələləri müzakirə etməsi, hətta bir çox vacib sahələrdə razılığa gəlmələri bunu deməyə əsas verir. Bu da təbidir: minillər boyunca eyni coğrafiyada yaşayan xalqlar zaman-zaman bir-birindən küsüb də, barışıb da. Hər halda, həmişə xalqlar sonda yenə də əməkdaşlığa, inteqrasiyaya dönüblər. İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani ilə Hafta.az-da söhbətləşərək bütün bu məsələləri müzakirə elədik. Gəlin müsahibəni birlikdə oxuyaq, görək təcrübəli diplomat nələrdən söz açır:***

- Məlum məsələlərdən sonra yaranmış soyuq münasibətləri aradan qaldırmaq üçün Aşqabad görüşü çox böyük töhfə verəcək. Açığını desəm, bu vəziyyətdən sonra prezidentlər arasında görüşün belə tez keçiriləcəyini gözləmirdim. Aşqabadda baş tutan görüş qarşılıqlı təmasların təməlini qoydu və dövlətlərimiz arasında əlaqələrin daha da genişlənməsinə stimul verəcək. Bu gün iki ölkə arasında çox məsələ var ki, həllini gözləyir. Bu baxımdan ilk görüşü başlanğıc saymaq olar.

Ehtiyac duyulan çox sayda iqtisadi layihələri həyata keçirmək lazımdır. Hətta deyərdim ki, onları icra və inkişaf etdirmək üçün yönləndirilməyə ehtiyac var. Mən bu fikrimi hər zaman, hətta Azərbaycanda səfir olanda da demişəm. Mövqeyim budur ki, bu iki qardaş ölkə iqtisadi sferada maksimum əməkdaşlıq etməlidir. İqtisadi birlik yaransa, bu, mədəni əlaqələrin də inkişafını sürətləndirər.

***- İran tərəfi bildirdi ki, son vaxtlar söhbət mövzusu olan Zəngəzur dəhlizinin yaradılmasını tam səmimi qarşılayır və alqışlayırlar. Çox maraqlıdır, bir halda ki beləydi, niyə ilk vaxtlar bu mövqe bildirilmirdi, əksinə münasibətləri soyudan fikirlər səsləndirilirdi?***

- Əvvəldən İran bu məsələdə bir məqama aydınlıq gətirilməsini istəyirdi. İndi nə səviyyədə aydınlıq gətirilib, bilmirəm, amma narahatlıq bu idi ki, Zəngəzur dəhlizi yarandığı təqdirdə İranın Ermənistanla birbaşa sərhədi qapacaqdı. Tehran isə bunu istəmir. Ermənistan İran üçün enerji və tranzit baxımından alternativ yoldur. İranın məqsədi var ki, Hind okeanı sahilindən başlayaraq Ermənistandan keçməklə Gürcüstana və oradan da Avropaya nəqliyyat xətti çəksin. Düzdür, Azərbaycan ərazisindən keçən Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyət göstərir, amma Ermənistan yolu alternativdir. Yenə deyirəm: dəhliz məsələsi Ermənistanla Azərbaycan arasında həll olunacaq layihədir. Burada Rusiyanın da böyük rolu var. Əslində Ermənistan da istəmir dəhliz vermək. Ermənilər istəyirlər ki, dəhliz yox, sadəcə dəmir və şosse yolları işləsin, özü də Ermənistanın tam nəzarəti altında. İrana gəlincə, Zəngəzur ərazisində hansı dəhlizlər yaradılır yaradılsın, bu işə qarışmır, sadəcə Ermənistanla birbaşa sərhədlərinin itməsini istəmir.

***- Azərbaycanda daha öncə səfir olmuş, ölkəmizi daha yaxşı tanıyan, iki ölkə arasında əlaqələrdə də daha çox nəyə ehtiyac olduğunu bilən bir şəxs olaraq deyin: Bu gün İran-Azərbaycan iqtisadi əlaqələrində inkişafa nail olmaq üçün konkret hansı sahələrdə addımlar atılmalıdır? Qarşılıqlı olaraq ticarətin həcmini yüksəltmək və investisiyalar yatırmaq üçün hansı sahələrdə daha çox potensial olduğunu düşünürsünüz?***

- İqtisadi əməkdaşlıq çox sahələri əhatə edə bilər. Tranzit, nəqliyyat, enerji məsələləri bura daxildir. Məsələn, Aşqabadda da qərara alındı ki, Türkmənistan qazı İran ərazisindən Azərbaycana ötürülsün. Bunlar çox gözəl addımlardır. Mən hər zaman bu ideyaların tərəfdarı olmuşam.

Bunlar davamlı və strateji proqramlardır, ardıyla da xalqlar arasında ünsiyyət dərinləşir, bölgədə əmin-amanlığın, sülhün bərqərar olmasına, birgə bazarların yaradılmasına yardım edir. İran çox istəyir ki, şirkətlərinə işğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələrində iştirak etmələri üçün icazə verilsin. Əslində, bu Azərbaycana da xeyirlidir, çünki məsafənin az olması daşınma xərclərini və sair azaldır. İranda neft-kimya sahələri çox inkişaf edib. Bu sahədə birgə istehsal yaratmaq olar. Bundan başqa, tibb, qida, maşınqayırma, mədənçilikdə, su-elektrik stansiyalarının tikilməsi sahəsində və sair. Özü də elə müştərək sahələr yaratmaq olar ki, məhsullar yerli bazara çıxarılmaqla yanaşı, dünyaya ixrac olunsun.

> *Bu vəziyyətdən sonra prezidentlər arasında görüşün belə tez keçiriləcəyini gözləmirdim*

> *Azərbaycan ərazisindən keçən Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyət göstərir, amma Ermənistan yolu alternativdir*

> *Moskva istəyirdi ki, "3+1" olsun, yəni üç Cənubi Qafqaz respublikası və özü*

***- Aşqabadda əldə olunan razılığa əsasən Azərbaycan, İran və Türkmənistan arasında qaz ticarətinə dair razılaşma imzalanıb. Bu ölkələrin hər üçü qaz ixracatçısıdır. Azərbaycan xaricdən qaz idxal etmir. Türkmənistandan İranın Xorasan əyalətinə qaz ixrac ediləcəyini bilirik. Bəs Azərbaycanın rolu burda nədir?***

- Burada söhbət ondan getmir ki, Azərbaycan xaricdən qaz alsın. Azərbaycan ərazisi qazın dünya bazarına çıxarılması üçün tranzitə çevrilə bilər. Bunun üçün xatırlayırsınızsa, Trans-Xəzər layihəsinin icrasından söhbət gedirdi, amma ekoloji fəsadları, daha çox xərc tələbi və sair nəzərə alınaraq hələ də qalır. Türkmənistan qazının İran ərazisindən keçməklə Azərbaycana və buradan da hazır kəmərlər vasitəsilə Avropaya nəqli mümkündür. Bu müstəvidə geosiyasi və geoiqtisadi layihələri birləşdirmək çox əla nəticə verə bilər.

Bilirsiniz ki, uzun müddətdir İrana qarşı tətbiqlənən sanksiyalar onun bəzi imkanlarını məhdudlaşdırıb. Dünyanın ikinci iri qaz ehtiyyatlarına malik olan İran bu gün az-çox Türkiyəyə qaz satır. Hansı ki, bu müqavilə də 2025-ci ildə başa çatır. Sonradan İran istədi ki, "Sülh" adlı qaz kəməri çəksin Pakistana, amma ABŞ maneə yaratdığı üçün bu layihə də yarımçıq qaldı. Əgər bu kəmərin tikintisi yubadılmasaydı, gələcəkdə Pakistan ərazisindən Hindistana qədər uzadılacaqdı. Pakistanla Hindistan arasında problemlərin olması səbəbindən kəmərin adı "Sülh" adlanırdı... Ola bilər sanksiyalar aradan qaldırıla, İran özü qaz sata dünyaya və bu zaman tranzit ölkə olaraq yenə də Azərbaycan seçilə bilər.

Bu gün İran qazının Avropaya kəmərlə daşınması üçün iki əsas variant var: Türkiyə və Azərbaycan. Hər iki ölkənin hazır qaz daşıyıcı strukturu mövcuddur. Mən bir faktı da diqqətinizə çatdırım ki, bu gün İranın neft-qaz infrastrukturunu ayağa qaldırmaq üçün minimum 200 milyard dollar nağd sərmayəyə ehtiyac var. İranın Xorasan əyalətinin təbii qaza olan ehtiyacı Türkmənistandan idxal olunan qaz hesabına ödənilir. Əgər türkmən qazı İran ərazisindən keçməklə Azərbaycana nəql olunarsa, o zaman Tehran Xorasan üçün alınan qaza verdiyi pulun əvəzinə tranzit haqqından vaz keçər. İranın burda qazancı bu olar ancaq.

***- Aşqabadda çəkilən şəkillərin birində 4 prezident bir aradaydı - İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan, Arif Alvi və təbii ki, Seyid İbrahim Rəisi. Sizcə bu dördlüyün görüşü nədən xəbər verir, bu dörd lider birlikdə dünyaya nə kimi heyrətləndirici töhfələr verə bilər?***

- Hər halda qonşuluq, müştərək tarixi-mədəni əlaqələr, geosiyasi məsələlər var. Bu dörd ölkə bir-biri ilə birbaşa quru sərhədə malikdir - qonşudurlar. Pakistandan Türkiyəyə İran ərazisindən keçməklə yol mövcuddur. Gələcəkdə bu sahədə daha böyük uğurlara imza atmaq mümkündür və Azərbaycan da İrandakı yollara qoşulmaqla Pakistana quru çıxışı əldə edə bilər. Bu dörd ölkənin əhalisi müsəlmandır, müştərək tarixi-mədəni əlaqələri var. Onların bölə bilməyəcəyi heç nə yoxdur. Doğrudur, aralarında nə vaxtsa xoşagəlməzliklər yaşana bilər, bu təbidir. Amma bunu bir kənara qoyaraq müştərək nöqtələr üzərində dayanaraq, əlaqələri inkişaf etdirmək lazımdır.



**Əfşar Süleymani,**
İranın Azərbaycandakı keçmiş səfiri

***- Cənubi Qafqaz respublikaları, Türkiyə, İran və Rusiyanın iştirakı ilə qurulacaq 3+3 formatı təklif olunmuşdu, amma Ermənistanla İran birmənalı qarşılamamışdı əvvəl bunu. Aşqabadda məlum oldu ki, İran bu formata tərəfdardır. Necə bilirsiniz, sözügedən formata daxil ölkələrin əhatəsində qalmış Ermənistan da sülhün möhkəmlənməsinə stimul verəcək bu formata qoşulacaqmı? Ümumiyyətlə, bu format bölgəyə nə verə bilər?***

- Əslində, "3+3" formatı əvvəldən də vardı. Şəxsən mən 20 il öncə İran Xarici İşlər Nazirliyində işləyəndə bu işlə məşğul olmuşuq. Sadəcə, o vaxt buna Rusiya imkan vermirdi. Moskva istəyirdi ki, 3+1 olsun, yəni üç Cənubi Qafqaz respublikası və özü. Bu yandan da Qərb imkan vermirdi İranın və Türkiyənin bu prosesə daxil olmasına. Düzdür, Minsk Qrupu bir iş görə bilməyəndə Azərbaycan özü problemi həll elədi və bundan sonra Türkiyənin də bölgədə müəyyən aktivliyi hiss olunmaqdadır. Əvvəllər İranla Azərbaycan arasında da bəzi anlaşılmazlıqlar vardı deyə proses alınmırdı. Amma bu gün vəziyyət dəyişib. Şəxsi qənaətimə görə, Azərbaycanla Ermənistan arasında qəti sülh müqaviləsi bağlanmayınca, "3+3" formatının işləyə biləcəyinə şübhə var. Bildiyimə görə Gürcüstan da Rusiya ilə aralarındakı məlum problemlərə əsaslanaraq formata qoşulmaq istəmir. Amma Ermənistan qoşulmağa hazırdır. İran da, Türkiyə də, Azərbaycan da, Rusiya da həmçinin. Məncə, əvvəlcə 3+3 ölkələrini təmsil edəcək ekspertlər səviyyəsində görüş keçirilməlidir.

Daha sonra başqa səviyyələrdə və burada fikirlər dinlənilməli, baxıb görmək lazımdır hansı ölkədən gələn var və sair. Bu da müəyyən vaxt aparacaq. Əlbəttə, Ermənistanın özündə də daxili siyasi ixtilaflar mövcuddur. Paşinyan çalışır ki, radikalların ağzını yummaq üçün xalqı üçün nələrsə etsin. Bunun üçün mövcud problemlər aradan qaldırılmalıdır. Ruslar istəyir burada qalaraq "at oynatsınlar". Tarixboyu bu bölgədə qalmaq istəkləri olub. Hər halda, ruslar da zamana uyğunlaşmağı bacarmalıdırlar. Gürcüstanda, Moldovada, Ukraynada, Qafqazda problemlər yaratmağa son qoymalıdırlar.

***- Bu gün eşitdik ki, yaxın vaxtlarda İrandan Azərbaycana, ardıyla isə Azərbaycandan İrana jurnalist heyətləri səfər edəcəkmiş. Sizcə, mediaturlar nəyi hədəfləyir, ümumiyyətlə, mediaturlar vasitəsilə ölkələrimiz arasında nəyə nail olmaq mümkündür?***

- Media nümayəndələrinin qarşılıqlı səfər edərək reallıqları öz gözləri ilə görüb yazmaları çox yaxşıdır. Düzdür, təcrübədən də məlumdur ki, bəzən tək-tək jurnalistlər qayıdandan sonra təhrifedici şeylər yazırlar. Belə başa düşdüm ki, bu səfərlər rəsmi şəkildə təşkil olunacaq. Bu halda hər şey əvvəlcədən ölçülüb-biçilir, jurnalistlər hara aparılacaq, nə göstəriləcək və sair. Burada əlavə problemlərə yer qalmır. İndi elektronika əsridir, hamı bir-birini izləyir, yazılan xəbərləri oxuyur, bilir və sair. Ümumilikdə götürəndə, mediaturların nəticəsi ölkələrarası əlaqələrin inkişafı baxımından yaxşıdır.

✍ **Vüsal**

# Qarabağın verilməsindən söz gedə bilməz

## Müsahib

***Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü artıq tarixdir. Onun hansı nəticələr doğuracağını isə yəqin ki, bir müddət sonra görəcəyik. İndi isə qarşıdan Brüssel görüşü gəlir. Vasitəçilər və məkanlar fərqli olsa da, mövzu eynidir - Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması. Hafta.az olaraq gündəmi Ümid Partiyasının sədri İqbal Ağazadə ilə müzakirə etdik:***



**İqbal Ağazadə,**
Ümid Partiyasının sədri

***- İqbal bəy, Soçi görüşünün əhəmiyyəti nədir və bu görüş regionda cərəyan edən proseslərə hansı təsir göstərəcək?***

- Soçi görüşünün nəticələri komissiyaların işi baxımdan Ermənistanın göstərəcəyi mövqedən asılıdır. Sərhədlərin müəyyənləşməsində, başqa proseslərdə Ermənistanın hansı mövqe nümayiş etdirəcəyi də bəlli deyildir. Yalnız bundan sonra Soçi görüşünün hər hansı təsiri barədə nəsə demək mümkün olacaq. Sadəcə olaraq görüş oldu və tərəflər müəyyən məsələlərlə bağlı razılaşdıqlarını dedilər. ATƏT-in Minsk Qrupu çərçivəsində də belə görüşlər olurdu və hər görüşdən sonra deyilirdi ki, görüş pozitiv oldu, amma bir nəticə yox idi. Ona görə də hesab etmirəm ki, Soçi görüşündə ciddi bir nəticə var və onu müzakirəyə çıxarıb qələbədən və ya uğursuzluqdan danışmaq tezdir.

Məsələn, Soçi görüşündə Qarabağ məsələsindən danışılmadı. Görüşdə Azərbaycan və Ermənistan münasibətlərindən və Ermənistan - Azərbaycan sərhədlərinin müəyyənləşməsi ilə bağlı məsələlərə diqqət etdilər. Gündəlikdə Qarabağla bağlı hər hansı mövqe olmayıb. Ermənistan Rusiyaya münasibətlər sistemində bəzi danışıqlardan imtina edirdi. Buna görə də həm Ermənistanda Rusiyanın xəttini müdafiə edənlər, həm də Rusiyada çalışdılar ki, Ermənistan öz mövqelərini fərqli şəkildə ifadə etməyə başlasın. Dağlıq Qarabağ bilavasitə Rusiya sühməramlılarının nəzarətində olduğuna görə hərbi təxribatları orada etmədilər. Düşünürdülər ki, orada hərbi məsələyə həm də Rusiya cavabdehdir və həmin bölgələrdə konfliktlə bağlı hər hansı bir addım atmaq Rusiyanın ziyanına olacaq.

***- Brüssel görüşündən gözləntiləriniz nədir?***

- Brüssel görüşündə heç bir ciddi nəticənin əldə olunacağını gözləmirəm. Ortada tərəflərin bu istiqamətdə ata biləcəyi ciddi addımın elementləri yoxdur. Başımızı belə şeylərlə qatmaq əvəzinə daha çox işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində sürətli addımlar atmalıyıq. Ərazilər bərpa olunaraq əhali ora köçürülməlidir. Əhali ora köçürüləndən sonra artıq nədən istəsəniz danışmaq mümükündür, hansısa hərəkətləri etmək də.

***- Müxalif cəbhədəki bəzi kəsimin dediyi kimi, bu görüşü "geriyə, SSRİ-yə dönüş"adlandırmaq olarmı?***

- Hələ indiyə qədər bir ölünün geriyə qayıdışını görməmişəm, eşitməmişəm. SSRİ ölü bir layihədir və onu geri qaytarmaq mümkün deyildir. Rusiya və digər tərəflərə də aydındır ki, bu çapaların nəticəsi olmayacaq. Yaxşı olar ki, Rusiya bu mənasız məsələlər uğrunda çapa göstərməsin. Rusiya ilə əməkdaşlığın fərqli formada olmasını arzulayırlar. Kiminsə SSRİ-ni bərpa edib özünün müstəqilliyindən keçməsinə inanmıram. Bir anlıq düşünün: 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti mövcud idi. Azərbaycanda və digər əski sovet respublikalarında kimlər Xalq Cümhuriyyətinə qarşı çıxdı; hakimiyyətdə olmayan adamlar və yenə də hakimiyyət rıçağı, sükanı əldə etmək istəyənlər. Azərbaycanın, həm də müstəqil Azərbaycanın prezidenti istərmi ki, gedib SSRİ-nin tərkibində olan asılı bir dövlətin rəhbəri olsun?! Azərbaycanda SSRİ-nin bərpasını istəyən Nərimanovlar, Heydər Qarayevlər indi belə bir gücdə deyillər ki, SSRİ-ni bərpa etmək üçün hərəkətə keçsinlər və 11-ci "qızıl ordu" Dərbənddən Azərbaycana girsin. Belə bir imkan yoxdur. Bu cür iddiaların ortaya atılması çox mənasızdır.

***- Bəzi siyasətçilər, partiya rəhbərləri öz şərhlərində Soçi görüşünü tənqid edərkən həm də iddia edirlər ki, "Prezident Putinlə razılaşıb, Dağlıq Qarabağ verilib". 44 günlük müharibədə qazanılan zəfərdən sonra diplomatik proseslərin getdiyi vaxtda bir siyasətçi bunu nəyə əsasən söyləyə bilər?***

- Qarabağın verilməsindən söz gedə bilməz. Bugünkü real şəraitdə Rusiya ilə qurulan münasibətlər sistemi bu və ya digər şəkildə Azərbaycanın maraqlarını təmin edəcək səviyyədədir. Bizim 30 ildə işğalda qalan ərazilərimizin 11 min kvadrat-kilometri azad olunub. Biz torpaqları hakimiyyətin fövqəlgücü olduğuna görə azad etmədik, həm də buna ictimai-siyasi vəziyyət, geosiyasi durum imkan yaratdı. Real geosiyasi vəziyyətdə Xankəndi, Ağdərə, Xocalı və Xocavəndin nə vaxt qaytarılacağını və rus sülhməramlılarının nə vaxt çıxarılacağını bilmək üçün siyasi vəziyyəti gözləmək, buna hazır olmaq lazımdır. Məsələ bu qədər bəsitdir.

> *SSRİ ölü bir layihədir və onu geri qaytarmaq mümkün deyil*

Yaxşı, soruşmaq lazımdır, harada qol çəkib verib?! Harada imza atıb İlham Əliyev və deyib ki, Qarabağı verək!? Adam deyir ki, "Status vermirəm, statusdan söhbət gedə bilməz". O zaman nəyi verdi bəs! Yəni bir az obyektiv olun! Mövcud iqtidarı istefaya göndərmək üçün Azərbaycanda obyektiv səbəblər tapmaq olar. Lakin onu Qarabağ üzərindən etmək, yumşaq desək, insafsızlıqdır.

***- Siz bu fikirləri söyləməklə, yəqin ki, müxalifətdən olan bəzi siyasətçilərin məzhəbincə oldunuz , "iqtidarın yandaşı"...***

- İqtidarın getməsi üçün uzun müddət mübarizə aparmışam və bundan sonra da siyasi partiyanın rəhbəri kimi mübarizəmi davam etdirəcəyəm. Ölkəmin, dövlətimin marağını iqtidarın getməsi və yaxud iqtidarın zəif düşəcəyi bir yerdə istifadə edib ona zərbə vurmaqdansa ölərəm. Mən aşıq deyiləm, ağız ədəbiyyatının nümayəndəsi deyiləm ki, bədii təcnislərlə söz deyim. Bir siyasi partiyanın rəhbəri sözünün məsuliyyətini anlamalı, siyasətlə məşğul olmalıdır.

✍ **Tahirə**

# Qarabağda yaradılan sənaye parkları

## Layihə

***Bu gün işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır. Qeyd edək ki, sözügedən ərazilərdə məşğulluğun təmin olunması, iqtisadi aktivliyin yüksəldilməsində sənaye parkları mühüm rol oynayacaq. Artıq bu ərazilərdə yaradılması planlaşdırılan "Ağdam", "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarına böyük maraq var. İqtisadiyyat naziri Mikayıl Cabbarovun sözlərinə görə, bu sənaye parklarının rezidenti olmaq üçün sahibkarlar nazirliyə 10 layihə təqdim edib:***



"Onların ilkin investisiya dəyəri 40 milyon manata yaxındır. Hazırda layihələr dəyərləndirilir. Ağdam Sənaye Parkında müxtəlif çeşidli sintetik xalça, xüsusi və fərdi geyimlər, polimer məhsulları, günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtükləri, prefabrik dəmir-beton məmulatlarının istehsalı üzrə beş layihəyə baxılır. Bu layihələr üzrə 1 100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur".

Nazir həmçinin bildirib ki, İqtisadiyyat Nazirliyinə məxsus Ağdam Sənaye Parkında sosial zonasının təşkili yekunlaşıb: "Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb".

Məlumat üçün vurğulayaq ki, Ağdamda yaradılan sənaye parkı Azərbaycan ərazisində beşinci, "Araz Vadisi İqtisadi Zonası" sənaye parkı isə altıncı olacaq. Ağdam sənaye klasteri üçün ayrılan sahə işğaldan əvvəl də sənaye istehsalı üçün istifadə edilib. Park Ağdam ətrafında 190 hektar ərazidə tikiləcək və Ağdam şəhərinə çəkilməsi planlaşdırılan əsas avtomagistral və dəmir yolu kommunikasiyalarının kəsişməsində yerləşəcək. Parkın inkişafı mərhələli şəkildə həyata keçiriləcək. Burada rezidentlər dövlət tərəfindən torpaq sahəsi, nəqliyyat və kommunal xidmətlər də daxil olmaqla lazımi infrastrukturla təmin olunacaq.

Aşağı icarə haqqının olması, 10 il müddətinə gəlir və əmlak vergisindən, habelə istehsal məqsədləri üçün avadanlıq və texnologiya idxalına görə müvafiq olaraq 10 və yeddi il müddətində ƏDV və idxal rüsumlarından azad edilmə sənaye parklarının rezidentləri üçün əlavə stimul olacaq. Sənayeləşmə prosesi mərhələli şəkildə həyata keçiriləcək. İlkin tapşırıq Ağdam şəhərinin və ona bitişik qəsəbələrin abadlaşdırılması olduğundan, təbii olaraq, ilk mərhələdə tikinti materialları istehsal edən şirkətlər parkın rezidentləri olacaq. Bundan əlavə, tikinti materiallarının ticarətinin təşkili üçün 5 hektar sahə ayrılacaq. Üstəlik, tikinti materiallarının satışı üçün yerlər ilk növbədə, park ərazisində öz istehsalını təşkil edən şirkətlərə veriləcək.

İkinci istiqamət - qida və emal sənayesidir. İnsanların azad edilmiş ərazilərə qayıtmasıyla burada kənd təsərrüfatı məhsullarının emalı üçün imkanlar yaradılacaq. Sovet dövründə üzümçülük, meyvəçilik, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq və kənd təsərrüfatının digər sahələri uğurla inkişaf edirdi, xammal bazası mövcudluğu halında isə şərabçılığı inkişaf etdirmək, meyvə-tərəvəz konservləşdirilməsi və emal sənayesinin digər sahələri üzrə istehsalı yoluna qoymaq asanlıqla mümkün olacaq. Kənd təsərrüfatı və qida sənayesinin inkişafı ilə yanaşı, parkda məhsulların saxlanması və qablaşdırılması üçün sahələr ayrılacaq. Beləliklə, bitkilərin becərilməsi, onların emalı və hazır məhsulun əldə olunması da daxil olmaqla, "sahədən piştaxtaya" prinsipi üzrə tam istehsal dövrü təmin ediləcək. Bu, nəqliyyat xərclərini azaltmağa və əldə olunan məhsulun rentabelliyini artırmağa imkan verəcək. Parkın ərazisində yük maşınlarının parklanması üçün də sahə ayrılacaq.

*"Yeni sənaye zonaları ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynayacaq*



**Tahir Rzayev,**
millət vəkili

Müəssisələrin sənaye parklarında yerləşdirilməsi istehsal növündən asılı olaraq və bütün tikinti norma və qaydaları nəzərə alınmaqla həyata keçirilir, ekoloji cəhətdən təmiz zona elan edilmiş Qarabağ regionunda isə ətraf mühit məsələləri birinci növbədə dayanacaq. Yaşayış ərazilərinə bilavasitə yaxın məntəqələrdə yüngül və qida sənayesi müəssisələri yerləşəcək. Yaşayış məntəqəsindən 500 metr məsafədə tikinti materialları istehsalı müəssisələri, 1000 metr məsafədə isə ağır sənaye müəssisələri yerləşəcək.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Tahir Rzayev bildirib ki, sənaye parklarında həm istehsal, həm tədarük, həm də idxal məsələlərinin cəmləşməsi böyük üstünlük yaradır: "Bu parkların əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, vaxt itkisinə yol verilmir, əmək məhsuldarlığı yüksək olur, təsərrüfatlar bir-biri ilə əlaqəli şəkildə işləyirlər.** Bu zonalar iqtisadi inkişafın təmin olunması, iqtisadi aktivliyin yüksəldilməsi baxımından olduqca əhəmiyyətlidir. Tutaq ki, Masallı rayonunda pomidor istehsal edilir və onu konservləşdirməkdən məqsədilə Bakıya gətirirlər. Təbii ki, bu böyük vaxt itkisidir. Amma parklarda bu proses eyni yerdə çəmləşir. Bilirsiniz ki, artıq işğaldan azad olunmuş ərazilərdən Ağdamda sənaye parkının yaradılmasına başlanılıb. Digər regionlarda isə bu parklar mövcuddur və yüksək səviyyədə də effekt verir. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə sənaye parklarının yaradılması üçün çox böyük potensial var. İstər əkinçilik, istər heyvandarlıq, istərsə də emal sahəsində geniş potensial mövcuddur. Ona görə də həmin ərazilərdə sənaye parklarının yaradılması ölkə iqtisadiyyatı üçün önəmli olacaq. Və cənab Prezident də öz çıxışlarında dəfələrlə xatırladıb ki, bu ərazilərdə yüksək potensial var. Bu parkların fəaliyyətə başlaması həm də yüzlərlə insanın iş yerləri ilə təmin olunması deməkdir. Ola bilsin ki, bu parklar xarici investorların marağına da səbəb olacaq və onların investisiya qoyması ilə nəticələnəcək. Artıq işğaldan azad olunmuş ərazilərlə bir çox ölkələrdən investorlar maraqlanırlar. Məsələn, türk qardaşlarımız bu gün həmin yerlərdə çox yaxşı işlər görürlər. Məndə olan məlumata görə, artıq türkiyəli investorlar Qubadlıda böyük işlər görməyə başlayıblar. Əlbəttə ki, bu parklar da həcminə görə çox iri olacaqlar və 10 hektarlarla yeri əhatə edəcəklər".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

### Ekspert rəyi...

■ **Qarabağda yaradılacaq sənaye parklarının əhəmiyyətinə toxunan iqtisadçı-ekspert Rəşad Həsənov da deyib ki, işğaldan azad olunmuş ərazilərdə məskunlaşmanın təşfiqi, eyni zamanda həmin ərazilərin iqtisadi potensialının mərkəzləşdirilməsi üçün hökumət müxtəlif alətlərdən istifadə edərək, öz mövqeyini ortaya qoyur:**

"Bu istiqamətdə resursları səfərbər etməklə bölgənin qısa müddətdə ölkə iqtisadiyyatına inteqrasiyası məqsədilə addımlar atılır. Həmin ərazilərə ümumi yanaşma olacaq, amma eyni zamanda xüsusi zona statusundan da istifadə etməklə bölgəyə investisiyanın cəlbi nəzərdə tutulur. Məsələn, Cəbrayıl "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkınının yaradılması yeri kimi müəyyən edilib. Ərazi nəqliyyat kommunikasiya imkanlarının üzərində yerləşdiyindən biznes üçün olduqca əlverişlidir. Dəmiryolunun bərpa edilməsindən sonra Zəngəzur üzərindən Naxçıvan-Türkiyə, Naxçıvan-İran, həmçinin əks istiqamətdə, Gürcüstana, Rusiyaya və hətta gələcək uzunmüddətli dövrdə Ermənistana belə malların daşınması mümkün olacaq. Digər tərəfdən, zonanın Xudafərin körpüsünün yaxınlığında olması və gələcəkdə burada yeni sərhəd məntəqəsi də fəaliyyətnin nəzərdə tutulması bölgənin iqtisadi əhəmiyyətini daha da artırır. Bu mənada zonanın İrana məhsul ixrac edilməsində böyük üstünlükləri var. Düşünürəm ki, bütün bunlar daha qısa müddətdə xarici və daxili investisiyaların səfərbər edilməsinə şərait yaradır.

Çünki Sənaye Parkı statusu sahibkarlara həm vergi, həm də digər istiqamətlərdə fiskal güzəştlər verir. Bu güzəştlərdən sahibkarların yararlanması fonunda bölgəyə maraq yüksək olacaq". Ekspert habelə əlavə edib ki, bu kimi addımlar yeni iş yerlərinin yaradılmasına mühüm töhfə verəcək: "Böyük ehtimalla, gələcəkdə investisiya qoyan rezidentlər çalışacaqlar ki, mümkün qədər bölgənin resurslarına uyğun fəaliyyət planları icra etsinlər. Bu o deməkdir ki, əlavə olaraq bölgənin inkişafı üçün multiplikativ bir dəyər formalaşdırma imkanı olacaq. Malları, xidmətləri həmin bölgədən almaqla, xammalı ordan çıxarmaqla iqtisadiyyatın təşkil edilməsi sənaye zonasının bölgənin iqtisadiyyatına effektiv təsirlərini daha da dərinləşdirə bilər. Eyni zamanda bu, iş yerləri də yaradacaq".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Laçın dəhlizi bağlanmasa...



**Ramiz Şərifov,**
hərbi ekspert

***"Nə qədər ki, Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü tam təmin etməyib, erməni silahlı birləşmələri ərazilərdən çıxarılmayıb, oradan arxa cəbhə kimi istifadə edəcəklər. Ola bilsin, Ermənistan öz silahlı qüvvələrini sərhəddə toplayıb atəşkəsi pozmaqla bizi KTMT üzvü olan ölkələrlə üz-üzə gətirməyə çalışsın".***

*"Rusiya ortaq məxrəc axtaracaq, amma sərhədlərin müəyyənləşməsi ilə təklif olunan xəritələr arasında çox fərq var*

Bunu hafta.az-a hərbi ekspert Ramiz Şərifov Soçidən sonra hərbi vəziyyətin hansı istiqamətdə dəyişə biləcəyi ilə bağlı sualımıza cavab olaraq bildirib. Ramiz Şərifov uzun müddət sovet ordusunda xidmət edən, rusun hərbi taktikasına yaxşı bələd olan bir şəxs kimi hesab edir ki, reallıqda bu addım regionda güclü bir dəyişikliyə gətirib çıxarmayacaq. Onun fikrincə, Zəngəzurda dəhliz ermənilərin əlində olacaqsa, o dəhlizdə hərəkət eləmək bizim üçün çətin olacaq.

"Danışıqlar nəticəsində kimin nə qazanıb, nə itirəcəyi hələ şübhə altındadır. Hər halda biz qalib durumdayıq. Azərbaycan Silahlı Qüvvələri elə bir vəziyyətdədir ki, istənilən an komanda verilsə, Azərbaycan ərazisində düşməni əzməyə qadirdir. Reallıqda isə rus ordusu



### Təhdid həmişə qalacaq

orda olduğuna görə biz ruslarla hər hansı bir toqquşmanın olmasını istəmirik. Rusiya ərazi baxımdan, əhalinin sayı, hərbi cəhətdən bizdən güclüdür". Ekspert hesab edir ki, Soçi görüşündə Rusiya və digər güclərin maraqlarını nəzərə alsaq, sərhədlərin müəyyənləşməsi özünün həllini tapa bilər.

"Rusiya ortaq məxrəc axtaracaq, amma sərhədlərin müəyyənləşməsi ilə təklif olunan xəritələr arasında çox fərq var. Bizim Azərbaycan əraziləri hazırkı Ermənistan ərazilərində qalan torpaqlarımızda bunların da tam həllini tapacağı inandırıcı görünmür. Hər halda bizim mövqeyimiz güclüdür. Qardaş Türkiyə ilə birlikdə bizim mövqeyimiz daha real, daha obyektiv görünür". R.Şərifov hesab edir ki, Ali Baş Komandanın qətiyyətli mövqeyi onu göstərdi ki, regionda yeni situasiya əmələ gəlib.

"Azərbaycan Silahlı Qüvvələri regionda ən güclü hərbi qüvvələrdir. Ermənistanın təkbətək bizə nəsə etməsi mümkün deyil. Bizim silahlı qüvvələrin gücünü Rusiya da bilir. Bu müharibədən sonra da Azərbaycan öz mövqeyini daha da gücləndirəcək. Bu o demək deyil ki, Ermənistan nə deyəcək, biz ona razılaşacağıq. Sülh sazişi olarsa, sərhədlər birdəfəlik müəyyənləşəcək.

Əsas məsələ bu gün Azərbaycan Ermənistan sərhədlərinin müəyyənləşməsi və qorunmasıdır. Daxildə olan erməni silahlı birləşmələri isə tədricən ərazini tərk edib gedəcək".

R.Şərifov hesab edir ki, hazırda Laçın dəhlizinin qalması bizim suverenliyimizə böyük təhdiddir. Zəngəzur dəhlizinin açılması Ermənistanın suverenliyinə heç bir təsir etmir. Azərbaycanın Laçın dəhlizinə nəzarəti bərpa etməsi ölkəmizin suverenliyinin bərpası deməkdir. Laçın dəhlizi hazırda rusların nəzarəti altında olduğuna görə suverenliyi təhdid altındadır. Laçın dəhlizi bağlanmasa, erməni silahlı qüvvələri ərazilərdən çıxmasa bu təhdid həmişə qalacaq. Əsas məsələ çöldən sərhədlərin müəyyən edilməsi və möhkəmlənməsidir".

***Tahirə***

## XƏBƏRİNİZ OLSUN...



■ Ağdam Sənaye Parkında müxtəlif çeşidli sintetik xalça, xüsusi və fərdi geyimlər, polimer məhsulları, günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtükləri, prefabrik dəmir-beton məmulatlarının istehsalı üzrə beş layihəyə baxılır. Bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Facebook" səhifəsində yazıb. Nazir qeyd edib ki, bu layihələr üzrə 1 100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

■ 2021-ci ilin ən yaxşı bombardirlərinin siyahısı açıqlanıb. Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) siyahısında milli çempionat və kubok, qitə kubokları, yığmada ümumilikdə 27 və daha çox qol vuran 52 futbolçu yer alıb. Cədvələ Robert Levandovski başçılıq edir. Polşa millisinin və "Bavariya"nın hücumçusu arxada qalan 11 ayda 64 qol vurub. Kilian Mbappe ikinci, Erlinq Haland üçüncüdür.



■ İlkin məlumata görə, Dövlət Gömrük Komitəsi cari ilin yanvar-noyabr ayları üzrə nəzərdə tutulan büdcə öhdəliyinə 111,19 % əməl edib. Bu barədə Komitənin sədri Səfər Mehdiyev "Twitter" hesabında yazıb. O qeyd edib ki, nəzərdə tutulan proqnozdan əlavə 396,3 mln. manat gömrük ödənişlərinin toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunub.

■ Avropa İttifaqına üzv 27 ölkənin daimi nümayəndələri Belarusa qarşı 5-ci sanksiya paketi qəbul edib. Bu barədə "TASS" agentliyi məlumat yayıb. "Aİ nümayəndələri bu gün səhər 25 fiziki və hüquqi şəxsin yer aldığı 5-ci sanksiya paketini qəbul edib", - deyə agentlik vurğulayıb.



■ Bu ilin dekabr ayının 1-nə olan məlumata görə, pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən fərdi mikrosahibkarlara maliyyə dəstəyi proqramı üzrə ayrılan vəsaitdən 113 055 900 manat 107 385 vergi ödəyicisinin bank hesabına köçürülüb. Bunu Xidmətinin rəis müavini Samirə Musayeva deyib.

■ ANAMA işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlar barədə aylıq statistik məlumatları açıqlayıb. Noyabrın 1-dən noyabrın 30-a qədər Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 256 piyada əleyhinə mina, 354 tank əleyhinə mina və 223 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 414 hektar ərazi mina və PHS-lardan təmizlənib.

■ "Barselona"nın futbolçusu Serxi Roberto əməliyyat olunacaq. Yarımmüdafiəçinin sağ ayağı cərrahi müdaxiləyə məruz qalacaq. 29 yaşlı ispaniyalı Finlandiyada cərrah masasına uzanacaq. Turku şəhərindəki əməliyyat yaxın günlərdə baş tutacaq. Qeyd edək ki, Serxi cari mövsümün 12 matçında 2 qol vurub.

## Araşdırma

*Azərbaycanda uzun illərdir ki, Rəqabət Məcəlləsinin qəbulu istiqamətində müzakirələr gedir. Bununla bağlı 2019-cu ildə Prezident İlham Əliyevin sahibkarlığın inkişafı sahəsində əlavə tədbirlər haqqında sərəncamında da Rəqabət Məcəlləsinin hazırlanmasına dair hökumətə tapşırıq verilib. Sözügedən Məcəllənin qəbulunun ölkə iqtisadiyyatının inkişafı üçün vacib amil olduğu dəfələrlə önə sürülməsinə baxmayaraq, indiyədək bu istiqamətdə konkret olaraq hansısa addım atılmayıb.*



# Qəbulu gecikən Rəqabət Məcəlləsi

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini Məmməd Abbasbəyli isə bu yaxınlarda Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüşü zamanı deyib ki, rəqabətə zidd davranışların qarşısının alınmasına dair nəzarət mexanizmlərinin təkmilləşdirilməsini özündə ehtiva edən Rəqabət Məcəlləsi qısa müddətdə hökumətə təqdim olunacaq. Bəs, görəsən, bu ilin sonunadək Rəqabət Məcəlləsini qəbul etmək mümkün olacaqmı? Bu sənədin qəbulu niyə yubanır? Yeni sənəddə hansı məsələlərin yer alması zəruridir?

### Yeni sənəd parlamentə hələ ki, daxil olmayıb

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, Rəqabət Məcəlləsinin hazırlanması və qəbulu uzun müddətdir müzakirə edilən məsələlərdəndir:** "Bu sənədin qəbulu vacibdir. Bununla bağlı artıq müzakrələr gedir. Bu istqamətdə layihənin hazırlanması ilə bağlı İqtisadiyyat Nazirliyi də rəsmi açıqlamalar vermişdi. Gözlənilir ki, 2022-ci ildə Rəqabət Məcəlləsinin qəbulu ilə bağlı proseslər daha aktiv, müzakirələr daha intensiv olacaq". Millət vəkili vurğulayıb ki, bu sənəd iqtisadiyyatda rəqabətin gücləndirilməsi baxımından çox vacibdir:



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

"Hətta əvvəlki dövrlərdə parlamentdə Rəqabət Məcəlləsinin müzakirəsi həyata keçirilib. Rəqabət Məcəlləsi vacib bir sənəddir. Bu məcəllənin qəbulunun bazara və bütövlükdə ölkə iqtisadiyyatında rəqabətin formalaşmasına və müdafiəsinə təsirləri xüsusi qiymətləndirilməlidir. O baxımdan Rəqabət Məcəlləsinin hazırlanması və qəbulu məqsədəuyğundur. Bazarda rəqabətin qorunması və bütövlükdə xalis rəqabətin müdafiə edilməsi Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə də uyğundur. Digər tərəfdən, Rəqabət Məcəlləsinin qəbulu nəticə etibarilə Azərbaycan üçün, xüsusən də sahibkarlar üçün rəqabət baxımından yeni imkanlardır. Bu, bazara çıxış, bazarda rəqabət imkanlarını artıracaq. Xalis rəqabət bir tərəfdən sahibkarların gəlirliliyinə təsir göstərəcək, eyni zamanda istehlak bazarındakı qiymətlərə təsir göstərən faktorlardan biridir. Bu baxımdan, sözügedən Məcəllənin qəbulu və icrası sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və xüsusən kiçik və orta müəssisələrin inkişafı baxımından yeni imkanlar açacaq. Bu, nəticədə azad sahibkarlığın daha da inkişafına xüsusi töhfə verəcək. Güman edirik, yeni sənəd bu istiqamətdə mövcud olan boşluqların aradan qaldırılmasına imkan yaradacaq və 2022-ci ildə bu istiqamətdə işlər daha intensiv aparılacaq. Sənəd Milli Məclisə daxil olduqdan sonra isə layihənin detalları barədə məlumat vermək mümkün olacaq. Bütövlükdə Rəqabət Məcəlləsinin əsas məqsədi iqtisadiyyatda rəqabətin gücləndirilməsi, azad sahibkarlığın daha yaxından dəstəklənməsi və gizli iqtisadiyyata qarşı mübarizənin daha da intensivləşdirilməsini özündə ehtiva edəcək".

*"2022-ci ildə Rəqabət Məcəlləsinin qəbulu ilə bağlı proseslər daha aktiv, müzakirələr daha intensiv olacaq*

*Belə bir qanunun qəbul edilməsi ölkə iqtisadiyyatının gələcək inkişafı yolunda əsas təkanverici qüvvə rolunda çıxış edəcək*

*Həmin sənədlər çoxdan qəbul edildiyindən köhnəlib və müasir standartlara cavab vermir*

### Bu məsələdə xeyli gecikmişik

■ **Məsələ ilə bağlı hafta.az-a danışan iqtisadçı alim Əli Əlirzayev qeyd edib ki, rəqabət qabiliyyətinin təmin edilməsi bazar iqtisadiyyatının yaradılması, təşəkkülü və inkişafının əsas prinsipidir:** "Məlumdur ki, artıq neçə illərdir bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Belə olan şəraitdə rəqabət qabiliyyəti əsas meyar və hədəfdir. Belə bir qanunun qəbul edilməsi ölkə iqtisadiyyatının gələcək inkişafı yolunda əsas təkanverici qüvvə rolunda çıxış edəcək. Rəqabət Məcəlləsi rəqabət qabiliyyətli iqtisadiyyat yolunda ali məqsəddir. İqtisadi artımın davamlı inkişafını təmin etmək istəyiriksə, uzun müddətli rəqabət qabiliyyətli müəssisə, məhsul yaratmalıyıq. Yəni məhsulun, fəaliyyətin rəqabət qabiliyyəti təmin edilməli, sahibkarlar öz məhsullarını satmaq üçün bazar tapmalıdırlar. Bu yolda da onlara Rəqabət Məcəlləsi yardımçı olur. Ona görə də rəqabət qabiliyyəti üzrə prinsiplərin olması mütləq lazımdır. Onun üçün də müasir dövrün tələblərinə cavab verən innovasiyalı, yeni keyfiyyətli məhsul istehsal edilməli, sahibkar üçün stimul yaradılmalı, bazarlar genişləndirilməlidir. Həmçinin burada kadr potensialı da mühüm rol oynayır. Rəqabət mühitində tələblə təklif amili də mühüm əhəmiyyət kəsb edir. Digər məhsulları istehsal edən müəssisələrlə rəqabətə girmək lazımdır. Bu bazar iqtisadiyyatı şəraitində onun diktəsilə edilən bir yarışdır. Rəqabət qabiliyyətinin olması müəssisələrin uzunmüddətli davamlı inkişafına da stimul yaradır, eyni zamanda onun gəlirləri artır. Gəlirlərin artırılması ilə müəssisə yeni-yeni axtarışlara meyl edir, müasir texnologiyalar tətbiq edir, tədqiqatlar aparır. Ona görə də sahibkarlığın inkişafında əsas amil olaraq məhz rəqabət qabiliyyəti çıxış edir. Təbii ki, rəqabət qabiliyyətinin təmin edilməsi üçün hüquqi baza olmalıdır. Bu baza rolunda da məhz Rəqabət Məcəlləsi çıxış edir. Onun əsaslarını, hüquqi və qanunvericilik bazasını yaratmaq, təşkilatı-iqtisadi strukturları təkmilləşdirmək, iqtisadiyyatın inkişafını təmin etmək üçün belə bir Məcəllənin qəbulu nəinki mümkün, hətta vacibdir. Əslində Rəqabət Məcəlləsi çoxdan hazırlanmalı idi, biz bu məsələdə xeyli yubanmışıq. Məcəllədə hansı əsas məqamların yer almasına gəlincə,, bütün qanunlarda olduğu kimi, Rəqabət Məcəlləsində də müəyyən mənada müasir şərait nəzərə alınmalı, burada qanunun nəyi tənzimləyəcəyi, hansı istiqamətdə və nə kimi işlər görüləcəyi öz əksini tapmalıdır".



**Əli Əlirzayev,**
iqtisadçı alim

### Qanun var, amma köhnəlib

■ **Qanunun hüquqi tərəfləri barədə hafta.az-la fikirlərini bölüşən hüquqşünas Əkrəm Həsənov da hesab edir ki, ölkədə sağlam rəqabət və iqtisadi inkişaf üçün Rəqabət Məcəlləsi qəbul edilməlidir:** "Müasir cəmiyyətin iqtisadi inkişafı üç məsələdən asılıdır. Birincisi şəxslərin mülkiyyət hüququnun müdafiəsidir. İkinci məsələ şəxslərin bağladıqları müqavilələrin icrasıdır. Yəni mən kimləsə müqavilə bağlayıramsa, mən istəyirəm ki, qarşı tərəf öz öhdəliyini yerinə yetirsin. Öhdəliyini yerinə yetirməyəndə mən əmin olmaq istəyirəm ki, məhkəmə məni müdafiə edəcək və qarşı tərəfi öz öhdəliyini icra etməyə məcbur edəcək. Üçüncü məsələ sağlam rəqabətdir. Çünki ola bilər ki, mənim mülkiyyət hüququm qorunur, hətta müqavilələr də icra olunur, amma ölkədə elə vəziyyətdir ki, sahibkarlar arasında bərabərlik yoxdur. Yəni kimsə qeyri-sağlam rəqabət aparır, ona şərait yaradılır. O da bu inhisarçı vəziyyətindən sui-istifadə edir. Kimsə hansısa bir sahəni inhisara alıb, orada heç kim fəaliyyət göstərə bilmir. Fəaliyyət göstərmək istəyənə də imkan vermirlər. Azərbaycanda demək olar ki, bütün sahələrdə inhisarçılıq var, bu inhisarlar isə oliqarx məmurlardır. Ona görə də onlar Rəqabət Məcəlləsinin qəbulunu yubadırlar.



**Əkrəm Həsənov,**
hüquqşünas

Ekspert vurğulayır ki, hazırda Azərbaycanda rəqabət mühitini tənzimləyən qanunvericilik bazası mövcuddur. Amma həmin sənədlər çoxdan qəbul edildiyindən köhnəlib və müasir standartlara cavab vermir: "İnhisarçılıq fəaliyyəti hazırda qüvvədə olan "Antiinhisar fəaliyyəti haqqında" qanunla, haqsız rəqabəti isə "Haqsız rəqabət haqqında" qanunla tənzimlənir. Lakin bu sənədlər köhnəlib və standartlara cavab vermir. Həm də sözügedən sənədlərdə bu məsələlər detallı əksini tapmayıb. Bu boşluqları aradan qaldırmaq üçün yeni Rəqabət Məcəlləsi lazımdır. Məcəllədə bütün məsələlər detallı şəkildə yazılmalıdır. Yəni, sənəddə sahibkardan tutmuş istehlakçıya kimi hər kəsin maraqları nəzərə alınmalıdır. Çünki haqsız rəqabətdən və inhisarçılıqdan əsas əziyyət çəkən də istehlakçıdır. Məhz bu vəziyyət ölkədə qiymətlərin sürətlə artmasına gətib çıxarıb. Hesab edirəm ki, yeni Məcəllə elə işlənməlidir ki, bazardakı inhisarçılarla mübarizə aparmaq, azad sahibkarlığın inkişafını təmin etmək, istehlakçı maraqlarını qorumaq mümkün olsun".

*Sevinc*

# Təcrübə meydanına çevrilən Azərbaycan təhsili

## Müzakirə

***Təhsil naziri Emin Əmrullayev bu yaxınlarda Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunda çıxışı zamanı deyib ki, valideynlər onların getdiyi məktəblə uşaqların getdiyi məktəblər arasında fərqlərin olduğunu qəbul etməlidirlər: "Biz az sual veririk ki, uşaqlar nə istəyirlər. Ən vacib sual isə budur ki, 20-30 ildən sonra uşaqlara nə lazımdır.***



Fənn bilikləri ilə bağlı deyə bilərəm ki, fənlərin ayrı-ayrı tədrisi köhnəlib. Biz üzləşdiyimiz problemləri həll etdikdə kompleks düşünür, həyat təcrübəsini tətbiq edirik. Odur ki, biz müasir təhsildən danışırıqsa, metodik olaraq fənn bazasından layihə əsasında öyrənməyə keçməliyik".

■ **"Təhsil sistemində islahatlar davam etdirilməlidir. Bu gün bizdə elə fənlər tədris olunur ki, beynəlxalq standartlara cavab vermir. Həmin fənlərin tədrisi yenilik gətirmir. Yəni, biz bu sahədə mütləq şəkildə dəyişiklik etməliyik". Bunu hafta.aza açıqlamasında təhsil naziri Emin Əmrullayevin "Fənn bazasından layihə əsasında öyrənməyə keçməliyik" fikrinə münasibət bildirərkən təhsil eksperti Kamran Əsədov deyib.**

*Məktəb artıq özü hadisəni öyrədəcək və onu vərdişə çevirə biləcək*

Onun sözlərinə görə, bəzi fənlərin tədrisi Azərbaycanda çox geri qalıb: "Təhsil naziri bəzi fənlərin tədrisi köhnəlib, biz layihə əsasında öyrənməyə keçməliyik deyəndə onu nəzərdə tuturdu ki, artıq bir sıra fənləri kimya, fizikanı yeni ad altında, yeni formatda təqdim etməliyik. Bu fənlər bizdə çox geri qalıb. Məsələn, Finlandiyada demək olar ki, artıq fənlər ümumilikdə ləğv olunub.

Baxmayaraq ki, fin təhsili dünyada ən qabaqcıl yerdədir. Və dünya reytinqində 2-3-cü yerləri paylaşır. Azərbaycanda isə məktəblərdə tədris köhnə sistemlə aparılır. Bu sistem ötən əsrin 1990-cı illəri üçün yaxşı idi. İndi biz XXI əsrdə yaşayırıq, ehtiyaclar dəyişib. Tutaq ki, fənlər ancaq bir informasiyanı verməlidir. Fənlərin yerinə fənlərarası format olmalıdır. Məsələn, biz tarixdə İkinci Dünya müharibəsini keçirik. İkinci Dünya müharibəsini keçəndə tarixi ilə yanaşı, həm də coğrafi ərazi ilə bağlı məlumat verməliyik. Bundan başqa, həm də riyazi tərəfləri tədqiq olunmalıdır. Misal üçün, döyüş alətlərinin uçuş sürətini təhlil etməliyik. Biz mövzunu "oynayaraq" öyrətməliyik. Eyni zamanda, bu mövzunu keçəndə şagirdlərə İkinci Dünya müharibəsi ölkələrinin dillərini öyrətməliyik. Tutaq ki, bu müharibədə İngiltərə iştirak edib. İngilisdilli ifadələrdən istifadə etməliyik. Təhsil naziri də bunu deyir, yeni mövzuları "oynayaraq" öyrətməliyik, şagirdlər ingilis dilini, eyni zamanda, müharibədə iqtisadiyyat, kommunikativ bacarıqlar, əlaqələrin qurulmasını öyrənəcəklər. Bu zaman şagirdlər təkcə informasiyanı almayacaq, həm də tətbiq edə biləcəklər. Məktəb artıq özü hadisəni öyrədəcək və onu vərdişə çevirə biləcək. Digər tərəfdən, müəllim-şagird münasibətləri tamamilə yeni müstəviyə qədəm qoymalıdır. Məktəblilər parta arxasında oturub həyəcanla lövhədə hər hansı bir informasiyanı gözləməli deyillər. Onlar qruplar halında yeni informasiyanı özləri də əldə etməlidirlər. Fin təhsil sistemində bunlar tətbiqə doğru gedir. Biz ümumi fənləri birləşdirməliyik.

Bu gün bizim uşaqlar kosmos, astronomiya ilə bağlı heç bir biliklərə malik deyillər. Halbuki bu günün tələbidir və yaxud da informatika fənnini orta məktəbdə çox aşağı səviyyədə keçirik. Pandemiya dövründə gördük ki, həyatımız ondan asılı vəziyyətə düşdü. Yəni yeni fənlər deyəndə nanotexnologiya, rəqəmsallaşma, robotatexnika nəzərdə tutulur. Biz artıq təhsilimizə bunları gətirməliyik".

■ **"Bu gün Azərbaycan beynəlxalq təhsilə inteqrasiya edir, bu sahədə müəyyən rasionallaşdırma tədbirləri aparılır və dərs vəsaitləri yenilənir. Burada bir məsələ var ki, hər ideya reallığa çevrilə bilməz. İlk növbədə, bu yöndə ictimai müzakirələr təşkil olumalıdır və yeni islahatlar pilot layihə olaraq həyata keçirilməlidir". Bu fikirlərim hafta.az-a açıqlamasında təhsil eksperti Nadir İsrafilov bildirib.**

Onun sözlərinə görə, dərsliklərin rasionallaşdırılması ilə bağlı pilot layihə effekt verərsə, o zaman bu istiqamətdə islahatlara getmək olar: "Biz bəzi fənləri birləşdirib bir dərslikdə tədris etmək istəyirik. Bu təcrübə bir çox ölkələrdə, o cümlədən qonşu Türkiyədə var.

*Yeni islahatlar pilot layihə olaraq həyata keçirilməlidir*

Türkiyədə təbiət və texniki fənlər birləşdirilərək bir dərslikdə tədris olunur.

Amma gəlin görək, bu Azərbaycanda nə dərəcədə effekli olacaq. Burada təkcə orta məktəbdən söhbət getmir, tələbə qəbulu qaydaları da istər-istəməz dəyişəcək. İxtisas qruplarında dəyişiklik qaçılmaz olacaq.

Tutaq ki, biologiya bir ixtisas qrupundadır, fizika başqa ixtisas qrupundadır.

Yəni, bu məsələnin hərtərəfli təhlili aparılmalıdır. Bizdə o qədər dərslik olub ki, tədrisə daxil etmişik, sonra kənarlaşdırmışıq. Əslində təhsili təcrübə meydanına çevirməməliyik. Konkret nəticə əldə olunan məsələlərdə islahatlara getməliyik".

*Sevinc*

# Bəzi dərman vasitələri apteklərdən niyə yoxa çıxır...



**Son vaxtlar apteklərdə bəzi dərman preparatlarının qıtlığı yaşanır. Əczaçılar isə deyirlər ki, bu vasitələr onlara depolardan gəlir, ara-sıra müxtəlif dərmanlarla bağlı bu tip problemlərlə üzləşirlər, lakin sonra yenidən gətirilirlər.**

Bəs görəsən, bu qıtlığın səbəbi nədir? Tapılmayan dərmanların ölkəyə gətirilməsi, yoxsa satılması zamanı maneələr var?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan tibb eksperti Rasif Bağırov bildirdi ki, bu Tarif Şurası, depolar və firma rəhbərləri arasında yaranan problemin əmələ gətirdiyi haldır.** Belə ki, əvvəllər dərman firmalarının hər birinin özünün ayrıca depoları var idi. Həmin depolar vasitəsilə apteklərlə əlaqə saxlanılırdı və dərmanlar verilirdi. Bəzən depolar eyni tərkibli dərmanları olduqda bir-birləri ilə rəqabətə girirdi.

*Bəzən hansısa məhsulu bazardan çıxarmaq üçün ona elə qiymət qoyurlar ki, nə həkim onu yaza bilir, nə də vətəndaş ala bilir*

Bu da qiymətlərin düşməsinə səbəb olaraq, alıcılara sərf edirdi. Firmalar da öz növbəsində mütəmadi olaraq həmin dərmanları gətirirdi. Sonralar müəyyən qüvvələr dərman firmalarına nəzarəti öz əllərinə keçirdi. Hər şey də bundan sonra başladı:

"Bundan sonra özlərinə müxtəlif adlarda depo yaratdılar. Xaricdən dərman gətirən firma rəhbərlərinə isə dedilər ki, siz artıq sərbəst şəkildə apteklərə heç nə sata bilməzsiniz. Məhsulları depolara verməlisiniz, onlar apteklərə paylamalıdırlar. Digər tərəfdən, Tarif Şurası dərman vasitələrinə qiymət qoymağa başladı.

Belə olan halda, sahibkarların işinə məhdudiyyətlər qoydu. Bəzən hansısa məhsulu bazardan çıxarmaq üçün ona elə qiymət qoyurlar ki, nə həkim onu yaza bilir, nə də vətəndaş ala bilir. Nəticədə bəzi dərmanların satışı olmur. Çünki dərman gətirən firma onu satmağa maraqlı olmur. Firmalar da baxır ki, hansının qiyməti özlərinə sərfəlidir, onu gətirib satırlar. Nəticədə, apteklərdə müəyyən vasitələrin çatışmazlığı yaranır".

*Banu*

# Uşaq qidaları və bezlər 35 faiz ucuzlaşa bilər

## Təklif

***Azərbaycanda ərzaq və qeyri-ərzaq məhsullarının sürətlə bahalaşması fonunda uşaq qidaları, uşaq bezlərinin qiyməti də kəskin şəkildə artıb. Son 3 ayda bu məhsulların dəyərində, təxminən, 5-7 manat artım var. Yerli idxalçılar mövcud vəziyyəti qlobal səviyyədə gedən bahalaşma ilə əlaqələndirsələr də, müşahidələr onu deməyə əsas verir ki, qonşu ölkələrlə müqayisədə Azərbaycanda uşaq qidaları və beziləri təxminən 2 dəfə baha satılır. Məsələn, 1200 qramlıq qablaşdırmada olan "Aptamil" uşaq qidası yerli bazarda 64 manat 49 qəpikdir.***




Qonşu Türkiyədə isə eyni adlı məhsul 32 manat 75 qəpiyə təklif olunur. "Prima" markasına məxsus 6 bədən 44 ədədli bir paket bezin Azərbaycanda qiyməti 31 manat 29 qəpik, Türkiyədə isə bu markaya məxsus 6 bədən 102 ədədli bir paket bezin qiyməti 26 manat 97 qəpikdir.

Azərbaycanda bu məhsulların digər ölkələrlə müqayisədə təxminən 2 dəfəyə yaxın baha olması gömrük və vergi rüsumları ilə əlaqələndirilir. Qeyd edək ki, ölkəmizdə ƏDV standart olaraq 18 faiz və 0 faiz dərəcə ilə tətbiq olunur. İnkişaf etmiş ölkələrdə ƏDV vahid dərəcə ilə tətbiq olunmur. Məsələn, Norveç ƏDV dərəcəsinin ən yüksək olduğu ölkələrdən biri sayılır. Bu ölkədə də bəzi sahələrə ƏDV tətbiq edilən zaman 14 və 8 faizlik dərəcələrdən istifadə olunur.

Dünya təcrübəsində həm də bəzi ərzaq mallarına, kitab, dərman və başqa gündəlik tələbat mallarına ƏDV tətbiq olunarkən güzəştlər nəzərdə tutulur. Məsələn, Fransada ərzaq mallarına 5,5 faiz, İsveçrədə 2 faiz, Sloveniyada 8,5 faiz, Almaniyada 7 faizlik güzəştli dərəcə tətbiq olunur. Böyük Britaniyada isə ərzaq ƏDV-dən tam azaddır. Eyni zamanda, beynəlxalq təcrübədə ölkə ərazisində ehtiyac duyulan, yerli istehsalı ya tamamilə ödəməyən, yaxud da qismən ödəyən məhsullara görə gömrük rüsumunun ləğv edilməsi də yayılmış praktikadır.

■ **Yeri gəlmişkən, ötən həftə parlamentdə büdcə müzakirələri zamanı Milli Məclisin deputatı Qənirə Paşayeva da uşaq qidaları və bezlərinin ƏDV-dən azad edilməsini təklif edib. O qeyd edib ki, Gürcüstanda uşaq qidaları və geyimləri ƏDV-dən azaddır:** "Bilirik ki, boşanan ailələrin sayı artır. Onlar aliment almaqda da çətinlik çəkir. Amma bu uşaqlar qidalanmalıdır. Qiymətlər orta təminatlı ailələr üçün də həttə kifayət qədər bahalıdır".

■ **Deputat Musa Quliyev də həmkarının fikirlərini dəstəkləyib. O qeyd edib ki, dünyada uşaqlarla bağlı bütün məhsulların satışında güzəştlərlə bağlı qanunvericilik var:** "Gəlin bunu biz də edək. Bu qidalar və bezlər ölkədə istehsal olunmur. Ölkədə istehsalı məsələsi ilə bağlı də düşünməliyik".

■ **Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayeva uşaq qidaları və bezlərinin ƏDV-dən azad edilməsi ilə bağlı təklifə münasibət bildirib:** "Hələ əfsuslar olsun, məhsulların istehsalı və idxalı zamanı onların adbaad, növbənöv uçotunu məsafədən izləmək imkanı yoxdur. Buna görə də qanunvericilikdən sui-istifadə hallarının baş verməməsi ilə bağlı sahibkarlara müvafiq infrastrukturun qurulması üçün məsələnin yekunlaşmasını gözləyirik. Təbii ki, bundan sonra bu cür məhsullara xüsusi yanaşma müzakirə oluna bilər".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Natiq Cəfərli də bildirib ki, Azərbaycanda sosial sahəyə aid olan bəzi məhsulların gömrük rüsumundan azad edilməsinə ehtiyac var:**



**Natiq Cəfərli,**
iqtisadçı-ekspert

"Biz dəfələrlə demişik ki, ölkədə vergi siyasəti və gömrük rüsumlarının bəlli reallığa uyğunlaşdırılması prosesinə zərurət var. Ümumiyyətlə, gömrük rüsumlarının əsas fəlsəfəsi yanaşması ondan ibarətdir ki, yerli istehsalçını qorusun. Uşaq yeməkləri bizdə demək olar ki, istehsal olunmur və yüz faiz idxaldan asılıyıq. Bezlərlə bağlı da eyni vəziyyətdir. Yerli bez istehsalı ilə bağlı müəyyən cəhdlər olsa da, uğursuzluqla nəticələndi. Yəni, bu məhsulla bağlı da idxaldan asılı vəziyyətdəyik. Bu isə kifayət qədər ciddi problemdir və kifayət qədər böyük kəsimi əhatə edir. Hər il ölkəmizdə 130 min və bundan daha çox uşaq dünyaya gəlir. Uşaqların 5 yaşınadək bu məhsullardan yararlandığını nəzərə alsaq, deyə bilərik ki, təqribən, 600 minə yaxın azyaşlı üçün nəzərdə tutulan qidaların, bezlərin bahalaşması onların ailələri üçün ağır iqtisadi yükdür. Ona görə də dəfələrlə təklif olunub ki, ölkədə istehsal edilməyən və sosial sahəyə aid olan məhsullar bir müddətlik sıfır rüsüm və sıfır vergi dərəcəsiylə ölkəyə idxal edilməlidir. Bu məhsullara uşaq yeməkləri, uşaq bezləri, dərmanlar, sağlamlıq qabiliyyətini itirən şəxslərə lazım olan avadanlıqlar və s. aiddir. Ən azından qiymətlərin tənzimlənməsi üçün belə bir addımın atılması daha yaxşı olardı. Təəssüf ki, bununla bağlı hələ ki, ciddi müzakirələr yoxdur. Gələn il bu istiqamətdə konkret addım atılacağı da mümkünsüz görünür. Hazırda büdcə müzakirələri gedir, hələ ki, bu məsələnin büdcədə öz əksini tapmasına dair rəqəmlər yoxdur. Bu da onu deməyə əsas verir ki, böyük ehtimalla gələn il də bu məsələnin həlli mümkünsüzdür. Ola bilər ki, ilin əvvəlində qiymət artımının süreti yüksəldikcə Prezidentin müvafiq fərmanı və ya tapşırığı ilə Nazirlər Kabineti rüsumlarla bağlı əlavə qərar qəbul etsin. Nazirlər Kabinetinin belə bir səlahiyyəti var və ümid edək ki, belə bir qərar mümkün olacaq".

> *"Vergi siyasəti və gömrük rüsumlarının bəlli reallığa uyğunlaşdırılması prosesinə zərurət var*

> *Rüsumlar azaldılacağı təqdirdə, inhisarçılardan tələb olunmalıdır ki, həmin dəyişiklik qiymətlərdə özünü göstərsin*

Ekspert onu da vurğulayıb ki, beynəlxalq praktikada daxili istehsalçını qorumaq ehtiyacı yaranmayan məhsulların gömrük rüsumu və vergi dərəcələri həmişə aşağı olur:

"Bu məntiqlə Azərbaycanda uşaq qidalarına və bezlərinə tətbiq olunan rüsum və vergilər də aşağı olmalıdır. Əgər bu praktika ölkəmizdə tətbiq olunarsa və sözügedən məhsullardan gömrük rüsumu, eləcə də 18 faizlik ƏDV götürülsə, bu məhsullar ən azı 35-36 faiz ucuzlaşacaq".

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Akif Nəsirli isə qeyd edib ki, inkişaf etmiş ölkələrdə uşaq qidaları və bez məhsullarında idxaldan asılılıq minimum səviyyədədir:** "Bununla bağlı dünyada yalnız 2-3 brend marka var ki, onların da bütün ölkələrdə müştərisi var. Amma bu çox cüzi hissədir və tələbatın 10-15 faizi həcmindədir. Həmin 10-15 faiz də adətən yüksək təminatlı ailələrin tələbatıdır ki, bu markaların məhsullarından istifadə edirlər. Yəni deməyim odur ki, dünyanın əksər ölkələrində bu məhsullara tələbat daxili istehsal hesabına ödənilir. Azərbaycanda isə bu məhsulların istehsalı yox dərəcəsindədir. Belə bir şəraitdə hökümət əhalinin aşağı təminatlı təbəqəsinin tələbatını nəzərə alaraq müvafiq addımlar atmalıdır. Hökümət bu istiqamətdə dəstək



**Akif Nəsirli,**
iqtisadçı-ekspert

verməlidir, rüsumları, əlavə dəyər vergisini azaltmaqla yanaşı, inhisarçılara inzibati təzyiqlər etməlidir.

Hökumət monopoliyanı birdən-birə aradan qaldıra bilməz. Heç bu istiqamətdə cəhdlər də yoxdur.

Əgər hökumət rüsumları, vergi dərəcələrini azaltsa belə, inhisar elə bir baladır ki, biz bu addımları bazarda müşahidə edə bilməyəcəyik. Hökumətin bu tədbiri inhisarçının mənfəətinin artmasına gətirib çıxaracaq. Başqa heç bir dəyişiklik olmayacaq. Bir daha qeyd edirəm ki, hökumət ikitərəfli iş görməlidir və rusumlar azaldılacağı təqdirdə, inhisarçılardan tələb olunmalıdır ki, həmin dəyişiklik qiymətlərdə özünü göstərsin. Əks təqdirdə yenə də qazanan sadə vətəndaş deyil, inhisarçı olacaq".

✍ *Sevinc*

# Tezliklə laçınlılar öz doğma yurdlarında yeni həyata başlayacaqlar

***Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Noyabrın 9-u artıq Laçın rayonunun Güləbürd, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi.***



**Ceyhun Məmmədov,**
Milli Məclisin deputatı

Şuşadan sonra işğala məruz qalan ikinci rayon olan Laçın 18 may 1992-ci ildə işğal edildi. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil oldu. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qaldı, 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və itkin düşdü. Rayonun əhalisi 79.1 min nəfər olmaqla respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşdı.

İşğal nəticəsində rayonda 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edildi, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qaldı. VI əsrə aid Alban




Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edildi.

Qeyd etmək lazımdır ki, Ermənistan Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən, Suriyadan olan ermənisilli qaçqınlar olmaqla məqsədyönlü məskunlaşma siyasəti apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərə məşğul olub. Cari ilin 14 fevral və 16 avqust tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda səfərdə oldu, Güləbird kəndində Azərbaycan Bayrağını qaldırdı.

Hazırda Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir, Laçın rayonunda fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır. Artıq Laçın rayonunda generasiya gücü 8 meqavat olan Güləbird Su-Elektrik Stansiyasını işə salınıb. Bu stansiya, təxminən, 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altıkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilib. Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, aeroportun tikilməsi bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Tezliklə Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçın da yenidən Azərbaycanın ən gözəl bölgələrindən birinə çevriləcək və Laçın əhalisi yenidən o gözəl torpaqlarda yeni həyata başlayacaqlar.



■ **ABŞ-ın Marşal İrsi İnstitutu (Marshall Legacy Institute, MLI) tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) daha 8 minaaxtaran it göndərilib. Bununla da Marşal İrsi İnstitutundan ANAMA-ya verilən itlərin sayı 20-yə çatıb. İtlər işğaldan azad edilən Qarabağda minatəmizləmə əməliyyatlarına qatılacaq.**

ANAMA-nın təlim və keyfiyyətə təminat üzrə aparıcı-mütəxəssisi Fikrət Əliyevin sözlərinə görə, itlər burda müəyyən təlim keçəndən sonra minaların axtarışına cəlb olunacaqlar: "Bu itləri biz gələndən sonra bir neçə həftə də ola bilər, bir aya qədər də ola bilər ki, yaşayış yerini dəyişdiyinə görə, müxtəlif ölkədən gəldiyinə görə, itlər karantində saxlanılacaq. Sonra onlar bizim bələdçilərimizə təqdim olunacaq.



■ **"Mən digər həmkarlarımın fikirlərini bölüşürəm ki, ATƏT-in Minsk Qrupu formatı işləmir və Aİ bu münaqişənin həlli istiqamətində yoxdur. Əminliklə deyirəm ki, telefon zəngləri kifayət deyil".**

Bunu Almaniyanın (Yaşıllar-Azad Avropa Alyansı) Avropa Parlamentindəki deputatı Viola von Kramon-Taubadel Avropa Parlamentinin Xarici Məsələlər Komitəsində Azərbaycan və Ermənistan arasında münasibətlərlə bağlı müzakirələrdə çıxışında deyib. Xanım parlamentari bildirib ki, insanlar əziyyət çəkir, saxlanılanlar dəyişdirilməyib, minalar hələ də qalır: "Və Avropa İttifaqı ortada yoxdur. Təqdirəlayiqdir ki, Aİ Şurasının Prezidenti Şarl Mişel "Şərq Tərəfdaşlığı" sammiti çərçivəsində vasitəçilik danışıqları keçirəcək, lakin bu, kifayət deyil.



■ **Rusiya Xəzər Şurasının yaradılmasını təklif edib. Bu barədə Rusiya xarici işlər naziri Sergey Lavrov Federasiya Şurasında "hökumət saatı"nda senatorların suallarını cavablandırarkən bildirib.**

O, Xəzəryanı ölkə başçılarının Aşqabadda keçiriləcək növbəti sammitində Rusiya tərəfindən Xəzər Şurasının yaradılması təşəbbüsünün irəli sürüləcəyini söyləyib: "Biz Xəzər Şurasının Həştərxanda yerləşməsini təklif edirik. Hazırda detallar razılaşdırılır. Hələlik heç kəs bu təşəbbüsə etiraz etmir. Bir sıra həmkarlarımız tərəfindən bunun növbəti bürokratik struktur olacağı ilə bağlı qorxuları var. Burada yəqin ki, məsələ bunu necə təşkil etməkdir. Bunu hansısa böyük katiblik maşını kimi deyil, Xəzər əməkdaşlığının müxtəlif aspektləri ilə bağlı sadəcə müntəzəm qurum kimi təşkil etmək olar.



■ **Qiymətlər baxımından Təl-Əviv şəhəri Paris və Honkonqu geridə qoyub və 2021-ci ildə yaşamaq üçün dünyanın ən bahalı şəhəri adını qazanıb. Bu barədə "The Jerusalem Post" qəzeti Böyük Britaniyanın "Economist Group" şirkətinin analitiklərinin tədqiqatına ("Worldwide Cost of Living 2021") istinadən yazır.**

Qeyd edək ki, şirkətin analitikləri dünyanın 173 şəhərində yaşayış minimumunu tədqiq edib. Qəzet qeyd edir ki, 2020-ci ildə Təl-Əviv Paris, Honkonq, Osaka və Cenevrədən sonra ən bahalı beşinci şəhər olub. Onun birinci yerə yüksəlməsinə İsrail şekelinin ABŞ dollarına qarşı məzənnəsinin uzun müddət artması, həmçinin ərzaq və nəqliyyatın bahalaşması səbəb olub. Məlumata görə, bu il şəhərdə əmtəə və xidmətlərin orta qiymətləri yerli valyutada 3,5% artıb, halbuki ötən il artım cəmi 1,9% təşkil edib.


# "Bakcell" nömrəsi almaq üçün ən yaxın ünvan ®




**Bakcell şirkəti özünün nomre.bakcell.com səhifəsini yeni dizaynla istifadəyə verib. Yenilənmiş sayt vasitəsilə abunəçilər istədikləri nömrəni rahatlıqla axtara, kateqoriyalar üzrə seçə və sifariş edə bilərlər.**

nomre.bakcell.com saytından istifadə etməklə abunəçilər həm 055 həm də 099 prefiksi ilə müxtəlif kateqoriyalı (sadə, bürünc, gümüş, qızıl, platin) nömrələri əldə etmək imkanına malikdirlər. Seçim zamanı nömrənin kateqoriyasına uyğun olan qiyməti ekranda əks olunacaq. İstədiyi nömrə mövcud olduğu təqdirdə, abunəçi sayt vasitəsilə onu sifariş verməli, sonra isə şəxsiyyət vəsiqəsi ilə "Bakcell"in rəsmi diler mağazalarından birinə yaxınlaşmalıdır. Daha ətraflı məlumat üçün nomre.bakcell.com səhifəsinə daxil olun. Bakcell xidmət və şəbəkə keyfiyyətini müntəzəm qaydada təkmilləşdirməklə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.

# “SOCAR-da müqavilələrin 60 faizi müvəqqətidir”

## Sosial

***“SOCAR-da aparılan optimallaşdırma tədbirləri ilə əlaqədar bu günə qədər sərbəstləşən işçilərin sayı 1674 nəfərdir. Onlardan 938 nəfər “SOCAR üzrə sərbəstləşən işçilərin məşğulluğunun və sosial dayanıqlığının təmin olunmasına dair” proqramına qoşulub”. Bu barədə hafta.az-ın sorğusuna cavab olaraq SOCAR-ın ictimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib. Onun sözlərinə görə, sərbəstləşən işçilərin qalan hissəsi isə başqa təşkilat və ya şirkətlərdə işləməyə üstünlük verdiyinə görə və ya digər səbəblərdən proqrama qoşulmaqdan imtina edib:***



“Proqrama qoşulanlara sonuncu iş yerləri üzrə aldıqları orta aylıq əmək haqqının 50 faizi həcmində orta aylıq müavinət ödənilir və könüllü tibbi sığorta təminatı saxlanılır. Eləcə də kvalifikasiya tələblərini ödədiyi vakansiyalar üzrə namizədliyinə baxılır və həmin əməkdaşlara daxili vakansiya təklifləri təqdim olunur. Proqrama qoşulan işçilərdən 310 nəfər bu günə qədər artıq SOCAR daxilində işlə təmin edilib”.

■ **“SOCAR-da müvəqqəti layihələr olmur. Orada qeyri-qanuni müvəqqəti əmək müqaviləsi bağlayan işçilər olur. Məsələn, SOCAR 2020-ci ildəki illik hesabatında yazır ki, 500-ə yaxın müvəqqəti işçisi olub.**

Bu, tamamilə yalandır, ona görə ki, SOCAR-da, onun strukturuna daxil olan idarə və müəssisələrdə işçilərlə bağlanmış müqavilələrin 40-60 faizi müvəqqəti müqavilələrdir”. Bunu hafta.az-a açıqlamasında Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı bildirib. Həmsöhbətimiz vurğulayır ki, SOCAR-da kütləvi ixtisarların olması sözügedən qurum tərəfindən inkar edilsə də, bu mütəmadi olaraq baş verir: “Bilirsiniz ki, 2020-ci ildə OPEK+ ölkələrinin qərarına əsasən, hasilat azaldıldı. Nəticədə 4 quruda fəaliyyət göstərən neft və qazçıxarma idarələrində quyuların müvəqqəti olaraq bağlanması başladı, bu NQÇİ-lərlə işləyən digər strukturlar da fəaliyyətini dayandırdı. Nəticədə SOCAR-da kütləvi ixtisarlar başladı. Baxmayaraq ki, bu qurumun rəsmiləri dəfələrlə bəyan edib ki, SOCAR-da ixtisar deyil, optimallaşdırma olur.

Bu əslində kütləvi ixtisar idi. Nədənsə, optimallaşdırma dedikləri siyasət SOCAR-ın baş ofisinin işçilərinə, sayı həddindən artıq çox olan müşavirlərə, bu qurumda çalışan qohum-əqrəbalara aid olmadı. Bu ixtisarları qeyri-qanuni imtahanlarla apardılar ki, tamamilə qanuna zidd idi. Və həmin işçilərə üç təklif oldu, bildirildi ki, kim istəyirsə ya ixtisara düşüb kompensasiya alsın, ya əməkhaqqının 5 mislini alsın, ya da təkmilləşdirmə proqramına qoşulsunlar. Deмək olar ki, əksər işçilər proqrama qoşuldular. Amma bu proqrama qoşulanlarla belə bir siyasət aparıldı ki, onlar şəxsi təşəbbüsləri ilə ərizə verib işdən çıxırdılar və proqrama qoşulurdular.

Beləliklə, ixtisar baş vermədiyi görüntüsü yaradıldı. Bu proqramı həyata keçirən “Neftçi” klubu idi. Bu klub isə qeyri-hökümət təşkilatıdır. Həmin proqrama qoşulanlara aylıq əmək haqqının 1 il müddətinə 50 faizi verilməli idi. “Neftçi” klubunda bu qədər pulun hardan olmasına cavab tapa bilmədim. Bu proqrama qoşulanlara da bildirilmişdi ki, sizə 3 dəfə iş təklif edəcəyik və razı olmadığınız təqdirdə, proqramdan çıxarılacaqsınız. Əksər işçilərə səmərəsiz iş təklif etdilər ki, onlar özləri imtina etsinlər. Nəticədə yenə də ixtisar baş vermədiyi görüntüsü yaradıldı. Ölkə başçısı 2020-ci ilin aprel ayında xəbərdarlıq etmişdi ki, iş yerlərində ixtisarlar olmamalıdır. SOCAR-da bu formada ixtisar olmadığına dair görüntü yaratmış oldu”.

> “
> *Ölkə başçısı 2020-ci ilin aprel ayında xəbərdarlıq etmişdi ki, iş yerlərində ixtisarlar olmamalıdır*

✍ ***Sevinc***

# İnsanlar istirahətə daha az vəsait xərcləyir



**Eldəniz Əmirov,**
iqtisadçı-ekspert

**“2020-ci ildə olan sərt qapanmalardan sonra 2021-ci ilin ilk yarısında və yay aylarında kifayət qədər insanlar istirahətlərinə vaxt ayırdılar. 2020-ci ildə olan qapanmalardan sonra insanların buna həm fiziki, həm də psixoloji olaraq ehtiyacları var idi. Bu zərurətdən doğaraq ötən illə müqayisədə daxili turizmdə aktivlik müşahidə edildi”. Bu fikirləri hafta.az-a açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.**

Ekspert həmçinin vurğulayıb ki, ölkə əhalisinin bahalaşma fonunda istirahətə nə qədər vəsait xərclədiyi barədə konkret rəqəm açıqlamaq qeyri-mümkündür. Bu ilin 7-8 ayı ərzində həmin vəsait artan xətt üzrə inkişaf edib: “Avqust ayından etibarən isə bu xərclərdə azalma müşahidə edilir. Bunun səbəbi həm mövsümlə, həm də inflyasiya ilə bağlıdır. Qiymətlərin artması səbəbindən artıq insanlar öz xərclərinə daha çox nəzarət etməyə, qənaət psinsipi ilə yaşamağı seçməyə başladığından istirahətə ayrılan vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə azalıb”.

> “
> *Hazırda insanlar gəlirlərinin 50 faizini qida və ərzaq məhsullarına sərf edirlər*

E.Əmirov onu da qeyd edib ki, hazırda insanlar gəlirlərinin 50 faizini qida və ərzaq məhsullarına sərf edirlər: “Bunun da əsas səbəbi istehlak məhsullarının, ələxüsus da ərzaq məhsullarında olan qiymət artımlarıdır”. Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin yanvar-oktyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 34,4 milyard manatlıq, o cümlədən 18,6 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 15,8 milyard manatlıq qeyri-ərzaq malları satılıb. Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 49,0 faizi ərzaq məhsullarının, 5,0 faizi içkilər və tütün məmulatlarının, 15,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,0 faizi avtomobil benzini və dizel yanacağının, 5,4 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,9 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub. Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 343,8 manatlıq, o cümlədən 185,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 158,1 manatlıq qeyri-ərzaq malları alıb.

✍ ***Sevinc***

# Koronavirus xəstələrinin SMS problemi

**Son günlər bəzi vətəndaşlar bildirirlər ki, CoVID-19-a yoluxan zaman onlara göndərilmiş mesajda bir müddət təcrid olunmaları qeyd olunur. Nə vaxtdan etibarən çölə çıxa biləcəkləri haqqında məlumat yazılmır.**



Digər problem isə odur ki, sağalmış vətəndaşa yoluxma haqqında mesaj gec gəlir və sağaldıqdan bir müddət sonra da çölə çıxa bilmir. Bəs görəsən, belə hallarla qarşılaşan vətəndaşlar nə etməlidir? COVID-19 xəstələrinin ictimai yerlərə getməsinin cəzası nədir? Vətəndaş hansı hallarda həbs edilə bilər? Hafta.az-ın əməkdaşı ilkin olaraq mesajlarla bağlı yaranan narahatlıqları araşdırmaq üçün TƏBİB-lə əlaqə saxladı.

■ **Qurumun ictimaiyyətlə əlaqələr şöbəsinin məsləhətçisi Elnarə Baxış bildirdi ki, göndərilən mesajlara İcbari Tibbi Sığorta Agentliyi nəzarət edir və bununla bağlı yaranmış problemlər də onların tabeliyində həll edilməli olan məsələlərdir.**

Daha sonra sözügedən agentliyin mətbuat xidməti ilə əlaqə saxladıq. İcbari Tibbi Sığorta Agentliyi isə bu məsələdə TƏBİB-i ittihamladı. Bildirildi ki, onların vətəndaşlara göndərdikləri xəbərdarlıq mesajlarının forması məhz TƏBİB tərəfindən verilir. Məlumatda o da vurğulanır ki, mesajlarla bağlı problemin yaşanması haqqında onlara bu zamana qədər şikayət daxil olmayıb. Hər şey qurum əməkdaşlarının nəzarəti altındadır.

İndi isə keçid alırıq məsələnin hüquqi tərəflərinə. Bununla bağlı hafta.az-a açıqlama verən vəkil Roman Qaraşov bildirdi ki, mesajla bağlı məsələ sırf texnikidir. Yəni bu hal vətəndaşın koronavirus xəstəsi olub-olması demək deyil:

“Əgər vətəndaş virusa daha əvvəl yoluxub, artıq sağaldığını zənn edirsə, bununla bağlı test verib, onun nəticəsinə uyğun olaraq əgər sağlamdırsa, rahat şəkildə hərəkət edə bilər. Hər hansı qurum əməkdaşı yaxud da polis tərəfindən saxlanılarsa, bu zaman mesajı təqdim edə bilər”. Vəkilin sözlərinə görə, koronavirus xəstələri yaşadıqları ünvanı tərk etdikdə onları aşağıda qeyd olunan cəzalar gözləyir:

139-1.1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda - iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 139-1.2. Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. İnzibati Xətalar Məcəlləsi Maddə 211. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması. 211.1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə - fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manatdan on bir min manatadək məbləğdə cərimə edilir.

✍ ***Banu***

## Təhsil

***Xəbər verdiyimiz kimi, Təhsil Nazirliyi Bakı Dövlət Universitetində (BDU) dekan və kafedra müdiri vəzifəsinə qəbul üçün müsabiqə elan edib. Belə ki, ali məktəbdə 8 fakültə dekanı və 29 kafedra müdiri vəzifəsi boşdur. Müsabiqədə iştirak etmək üçün sənədlər 1 ay müddətində qəbul ediləcək.***



# Kimlər dekan, kafedra müdiri ola bilməz...

Bəs görəsən, sözügedən vəzifələrə seçiləcək namizədlərdən əsas tələblər nələrdir? Dekan və kafedra müdirlərinin vəzifələri bizdə və dünya təcrübəsində hansı formadadır? Hafta.az-ın mövzu ilə bağlı araşdırmasını sizlərə təqdim edirik:

■ **İlk olaraq, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mətbuat katibi Bəhruz Nəzərov bildirdi ki, ali təhsil ocağında dekan və kafedra müdirləri səs vermə yolu ilə 5 il müddətinə seçilir.**

Həmin şəxslərin 5 il bitdikdən sonra yenidən seçilmək hüququ vardır. Eyni şəxs ard-arda 2 dəfədən artıq seçilə bilməz. Hazırda universitetdə 7 fakültə 24 kafedra var. Fakultə və kafedra müdirləri seçilən zaman onlardan tələb olunanlar, bunlardır: “Namizəd həmin kafedra və fakültələrin tələbələrinin ixtisasına uyğun ixtisasa sahib olmalı, ən az 5 il müddətinə fakültə daxilində elmi yaxud pedaqoji fəaliyyət göstərməlidir. Həmçinin onun elmi dərəcəsi yaxud elmi adı olmalıdır. Bundan başqa, dekanın səlahiyyətləri fakültə miqyasında tədrisi təşkil etmək, fakültə şurasına rəhbərlik etməkdir. Eyni ilə kafedra müdiri də kafedra üçün oxşar prosesləri həyata keçirir. Bizdə yay aylarında seçkilər oldu. Seçilənlər arasında həm təkrar seçilən həm də yeni üzvlər var”.

■ **Azərbaycan Dillər Universiteti (ADU) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cavid Zeynallı isə deyir ki, ADU-da dekanlar və kafedra müdirləri seçki əsasında vəzifəyə təsdiqlənir.** Bu prosesdə hər iki vəzifəyə seçkinin keçirilməsinin müvafiq təlimatına istinad edilir. Həmçinin, bütün təhsil müəssisələrində dekan və kafedra müdirlərinin səlahiyyəti bərabərdir.

■ **Azərbaycan Texniki Universitetinin (AzTU) mətbuat katibi Sevinc İsgəndərova da Universitetdə dekan və kafedra müdiri vəzifəsinə təyinat seçki yolu ilə həyata keçirildiyini söyləyir.**

Onun sözlərinə görə, seçki prosesi qanunvericiliyin tələblərinə uyğun təşkil olunur. Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları isə bütün ali təhsil ocaqlarında olduğu kimidir.

■ **Prosesin rəsmi qaydada aparılmasına gəldikdə isə həmsöhbətimiz təhsil eksperti Kamran Əsədov, Ali təhsil müəssisələrində kafedra müdiri və fakültə dekanı vəzifələrinin tutulması müsabiqə yolu ilə həyata keçirildiyini söylədi:**

“Müsabiqənin nəticəsinə əsasən həmin vəzifələrə seçilmiş şəxslərlə işəgötürən arasında əmək münasibətləri 5 il müddətinə bağlanmış əmək müqaviləsi ilə tənzimlənir. Ali təhsil müəssisəsi tərəfindən kafedra müdiri və fakültə dekanı vəzifələrinə vakansiya yarandığı gündən 1 aydan gec olmayaraq, əmək müqaviləsinin müddəti başa çatan vəzifələrə isə həmin müddətin başa çatmasına 2 ay qalmış vəzifələrin tutulması ilə bağlı müsabiqə elan olunur. Sənədlərin təqdim olunmasına və müsabiqənin keçirilməsinə hər birinə 1 ay olmaqla vaxt ayrılır. Müsabiqənin vaxtında elan olunmasına və üzrsüz səbəbdən vaxtında keçirilməməsinə görə ali təhsil müəssisəsinin rektoru intizam məsuliyyəti daşıyır”.

Kafedra müdiri və fakültə dekanı vəzifələrini tutmaq üçün ali təhsil müəssisəsi tərəfindən kütləvi informasiya vasitələrində və ali təhsil müəssisəsinin internet səhifəsində müsabiqə elan edilir. Kafedra müdiri və fakültə dekanı vəzifələrinə namizədlər təhsil sahəsində qanunvericilik, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 2017-ci il 20 dekabr tarixli 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş ”Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”, bu Qaydalarla, ixtisas tələbləri, əmək funksiyaları ilə tanış olur və elan dərc olunduqdan sonra nəzərdə tutulan müddətdə müsabiqədə iştirak etmək üçün ərizə ilə ali təhsil müəssisəsinin rektoruna müraciət edirlər. Bütün hallarda bir şəxsin eyni zamanda kafedra müdiri və dekan vəzifəsini icra etməsinə yol verilmir.

Ekspert müsabiqə tələb olunan ümumi şərtlər barəsində də məlumat verdi:

- kafedra müdiri vəzifəsinə müvafiq kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, ən azı 5 il elmi-pedaqoji təcrübəyə malik Azərbaycan ı vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər;
- dekan vəzifəsinə fakültədə kadr hazırlığı aparılan ixtisaslara uyğun, ən azı 5 il elmi-pedaqoji təcrübəyə və peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcəyə malik Azərbaycan vətəndaşları, həmçinin xarici ölkə vətəndaşları iştirak edə bilərlər. Eyni şəxs eyni ali təhsil müəssisəsində dekan vəzifəsinə ardıcıl olaraq 2 dəfədən artıq seçilə bilməz;
- dövlət təhsil müəssisəsində akademik və inzibati vəzifələrin tutulmasının yaş həddi Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Bu yaş həddinə çatan pedaqoji işçilərin akademik və inzibati vəzifə tutmamaq şərti ilə, təhsil müəssisəsinin tədris və elmi fəaliyyətində tam iştirak etmək hüququ təmin edilir;
- bədən tərbiyəsi və idman, incəsənət, musiqi təmayüllü kafedraların müdiri və ya müvafiq fakültələrin dekanı vəzifəsini tutmaq üçün müsabiqədə bu Qaydalarda qeyd olunan tələblərə uyğun gələn şəxslərlə yanaşı həmin ixtisaslar üzrə elmi dərəcəsi və adı olmayan, lakin həmin sahədə dövlət təltifləri olan şəxslər də iştirak edə bilərlər.

Kafedra müdiri və fakültə dekanı vəzifələrini tutmaq üçün namizədlərin göstəriciləri həmin vəzifənin tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti pozulduqda sənədlərin qəbulundan imtina olunur. Namizəd ərizəsini seçkiyə qədər istənilən vaxt geri götürə bilər. Kafedra müdirinin və dekanın fəaliyyətinə nəzərdə tutulmuş müddətdən əvvəl xitam verildiyi və ya elan olunmuş müsabiqə baş tutmadığı hallarda ali təhsil müəssisəsi rektorunun əmri ilə kafedra müdiri vəzifəsinin icrası kafedranın əməkdaşlarından birinə, dekan vəzifəsinin icrası isə dekan müavininə və ya fakültənin tərkibindəki kafedralardan birinin bu Qaydalarda oyulan tələbləri ödəyən əməkdaşına müvəqqəti (üç aydan çox olmayaraq) olaraq həvalə olunur.

Dekan vəzifəsini icra edən şəxs, vəzifəni icra etdiyi müddətdə kafedra müdiri və ya dekan vəzifələrinin tutulması ilə bağlı müsabiqədə iştirak edə bilməz. Kafedra müdiri vəzifəsini icra edən şəxs dekan vəzifələrinin tutulması ilə bağlı müsabiqədə iştirak edə bilər.

✍ ***Banu***

# Fidan Hüseynova İnformatika üzrə beynəlxalq Olimpiadada gümüş qazandı

R




**Azərbaycanlı məktəblilər beynəlxalq bilik yarışmasında növbəti dəfə uğur qazanıblar. Bolqarıstanın Şumen şəhərində onlayn formatda təşkil edilən informatika fənni üzrə 13-cü payız turnirində Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Fidan Hüseynova gümüş medal əldə edib.**

Noyabrın 24-29-da keçirilən olimpiadaya aşağı yaş qrupu üzrə 15 ölkədən 168 məktəbli qatılıb. Azərbaycanlı məktəblinin bu uğurunda ölkəmizdə təhsilin inkişafına yönələn layihələri hər zaman dəstəkləyən “Azercell Telekom” MMC-nin də böyük rolu var.

Belə ki, İnformatika fənni üzrə beynəlxalq olimpiadalara milli komandaların hazırlıq prosesi 2017-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil İnstitutu və “Azercell Telekom” MMC arasında imzalanmış əməkdaşlıq müqaviləsi əsasında həyata keçirilir. İstedadlı şagirdlər Azercell-in dəstəyi ilə təşkil olunan xüsusi mərkəzlərdə İnformatika fənni üzrə Beynəlxalq Olimpiadalara hazırlaşaraq, öz elmi potensiallarını nümayiş etdirə bilirlər.

Xatırladaq ki, 2017-ci ildən etibarən Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı “Azercell Telekom” MMC-nin dəstəyi ilə məktəblilərimiz müxtəlif miqyaslı beynəlxalq olimpiada və müsabiqələrdə uğurla çıxış edərək, 1 qızıl, 7 gümüş və 18 bürünc olmaqla, ümumilikdə 26 medal əldə ediblər.

## Şəbəkə

# Şantajla qadınları intihara sürükləyənlər

***Paytaxtın Yasamal rayonunda 19 yaşlı Fidan Niftəliyevanın özünə qəsd etməsi ilə bağlı məlumat yayıldı. Məlumata görə, intihar etmiş 19 yaşlı Fidan Niftəliyeva açıq-saçıq videoları ilə şantaj edilirmiş. Onun "18+" kateqoriyasından olan videoları sosial şəbəkələrin birinin qrupunda paylaşılıb. Təəssüflər olsun, bu, şantaj olunan qadınların canına qəsd etdiyi nə ilk hadisədir, nə də son olacağı ehtimal edilir. Hazırda instaqram sosial şəbəkəsində də oxşar "iş", yəni şantajla məşğul olan "son_deyiqe" adlı hesab mövcuddur. Daha doğrusu, sözügedən profil dünən axşama qədər fəaliyyətdə idi.***



*İnstaqram və feysbuk kimi sosial şəbəkələr Azərbaycandan olunan müraciətlərə vaxtında cavab vermir, şikayətlərimiz ciddi qəbul olunmur*

Belə ki, 90 mindən çox izləyicisi olan instaqram profili xanımların fotolarını icazəsiz paylaşaraq altına təhqiramiz açıqlamalar yazır. Həmçinin fotoları silmək üçün 50 manat pul tələb edir. Bəzi istifadəçilər bu profili dəfələrlə şikayət edib bağlatdırmaqlarına baxmayaraq, yenidən fəaliyyətinə davam etdirdiyini bildirirlər. Hətta bəzi şəxslər polisə müraciət edildiyi halda, dələduzun tapılıb cəzalandırılmamasından narahatlıqlarını ifadə edirlər. Bəs görəsən, bu tip xoşagəlməz halların qarşısını almaq məqsədilə hansı qabaqlayıcı tədbirləri görmək lazımdır? Şantaj edilən şəxslərin hüquqları nələrdir? Sosial şəbəkə dələduzlarını hansı cəzalar gözləyir?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Naqif Həmzəyev təəssüf hissi ilə bildirdi ki, biz tez-tez sosial şəbəkələrdə qanunsuzluqlara şahid oluruq.** Bəzi insanların hüquqları pozulur, şəxsi hesabları oğurlanır və s. Ancaq instaqram və feysbuk kimi sosial şəbəkələr Azərbaycandan olunan müraciətlərə vaxtında cavab vermir, şikayətlərimiz ciddi qəbul olunmur. Bundan istifadə edənlər də insanların hüquqlarını tapdalayır, onların hissiyyatına toxunur, şərəf və ləyaqətlərini alçaldırlar:

"İlk növbədə çalışmalıyıq ki, sosial şəbəkələrin regional ofisləri ilə əlaqələri dövlət səviyyəsində gücləndirək. Azərbaycandan olan istifadəçilərin şəxsiyyətlərinin tanınmasını, onlara təsdiqlənmiş hesablardan istifadə hüququnun verilməsi, xoşagəlməz hallar baş verdikdə dələduzluq edənlərin tapılıb cəzalandırılması təmin edilsin. Bununla yanaşı bizdə kiber təhlükəsizliklə məşğul olan yerli mütəxəssislərin sayı artmalıdır ki, onlar vətəndaşlara xidmət göstərsinlər. Hazırda ölkəmizdə bu sahədə çalışan şirkətlər ya çox azdır, ya da tanınmırlar".

Deputat deyir ki, elə oxşar problemlə yaxın zamanlarda özü də üzləşib. Belə ki, onun instaqram hesabı oğurlanıb:

"Təəssüflər olsun ki, mənim instaqram səhifəm oğurlanıb. Biz hesabın geri alınması üçün bütün mütəxəssisləri cəlb etmişik, ancaq hələ də real nəticə ala bilməmişik. Məcbur olub problemi xarici ölkələrdə çalışan şirkətlərlə həll etmək qərarına gəlmişik".

N.Həmzəyev hesab edir ki, sosial şəbəkələrdə dələduzluq hallarının qarşısını almaq üçün müxtəlif qanunların qəbul edilməsinə, yaxud da qanunvericilikdə dəyişikliklər olunmasına zərurət var:

"Yaxşı olardı ki, sosial şəbəkə istifadəçiləri öz şəxsiyyət vəsiqələri ilə profillərini təsdiqləyə bilsinlər. Bir məqam da var ki, başqa ölkələrdə yaşayan şəxslər azərbaycanlı sosial şəbəkə istifadəçiləri üçün ciddi problemlər yaradırlar. Həmin adamların tapılıb məsuliyyətə cəlb edilməsi uzun vaxt tələb edir. Bunun tək çıxış yolu da sosial şəbəkələrin ofisləri ilə əlaqələrin qurullmasıdır. Hazırda sosial şəbəkələrlə bağlı həm Daxili İşlər Nazirliyinin, həm Dövlət Təhlükəsizlik Xidmətinin, həm də Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tərkibində müxtəlif qurumlar var. Həmin qurumların işini daha da gücləndirmək, onlara vəsait ayırmaq lazımdır. Biz daxili fəaliyyətimizi nə qədər gücləndirsək də, əsas olan məqam baş və yaxud regional ofislərlə olan əlaqələrdir. Təəssüf ki, adicə "Mavi tik" adlanan şəxsiyyətin təsdiqlənməsi prosesi ölkəmiz üçün ciddi problemə çevrilib".

*Cinayət məsuliyyətindən əlavə 5-10 min manat məbləğində iqtisadi sanksiyalar tətbiq edilsin*

■ **"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə, zərərçəkən xanımlara məsələ ilə bağlı cinayət işinin qaldırılması üçün birgə müraciət etməyi tövsiyyə edir.** "Ümumiyyətlə, təklifim odur ki, qadınlara qarşı zorakılıq təbliğ edən, onları təhqir edən adamlar böyük məbləğdə cərimələnsinlər. Cinayət məsuliyyətindən əlavə 5-10 min manat məbləğində iqtisadi sanksiyalar tətbiq edilsin. Kiminsə həyatını təhlükə altında qoymaq, yaxud da onun şərəf və ləyaqətini alçaltmaq, haqqında xoşagəlməz fikirlər yaymaq çox ciddi məsələdir. Bu elə belə məsələ deyil. Zamanla yəqin ki, hüquqi baxımdan da ciddi qanunlar qəbul ediləcək. Məsələ ilə bağlı qanunvericilikdə dəyişikliklər edilməlidir".

Sədr hesab edir ki, belə məqamlarda ciddi tədbir görmək başlıca şərtdir. Vaxtında atılmayan addım daha sonra ölüm kimi ağır hallarla nəticələnə bilir:

"Sosial şəbəkələr biz istəsək də, istəməsək də həyatımızın tərkib hissəsinə çevrilib. Kimlərsə onun üzərindən çirkin əməllər yerinə yetirir. Gərək elə bu zorlama yaxud da fiziki zorakılıq olsun? Elə dünən 19 yaşlı gənc qız şantaj edildiyi üçün intihar etdi. Həmin sosial şəbəkələrdə paylaşılan materiallar bəzən bundan da ağır fəsadlar verir. Ona görə də mənə elə gəlir ki, iqtisadi sanksiyalar ən yaxşı cəza yöntəmlərindən biridir".

***Banu***

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyevin sərəncamı ilə gənclər və idman naziri Fərid Qayıbova yeni müavinlər təyin olunub. Onlardan biri Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin keçmiş müdiri İndira Hacıyevadır. O, 2012-ci ildən 2021-ci ilə qədər isə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri vəzifəsində çalışıb. Nazirin digər müavini Marina Vasileva isə 1974-cü ildə Bolqarıstanda doğulub. O, Bolqarıstan yığmasının heyətində gimnast kimi çıxış edib. Karyerasını başa vurduqdan sonra isə "Levski" klubunda məşqçi kimi işləməyə başlayır. M. Vasileva 2007-ci ildə Azərbaycan yığmasından təklif alsa da, o, ölkəmizə 2009-cu ildə gəlib. Həmin ildən yığmamızın çalışdırıcısı olaraq fəaliyyət göstərir.

### Həftənin ÇAĞIRIŞI



Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Ermənistan və Azərbaycanı mövcud problemlərin uzunmüddətli həlli üçün siyasi dialoqa çağırıb. "Mən tamamilə əminəm ki, yalnız siyasi dialoq dayanıqlı nizamlanmaya gətirib çıxara bilər. Bu həm də Ermənistan və Azərbaycanda vətəndaş cəmiyyətinin birləşməsini, körpülərin qurulmasını və barışıq səylərinə kömək etməyi tələb edir", - o vurğulayıb.

### Həftənin XƏBƏRDARLIĞI



Rusiya Prezidenti Vladimir Putin NATO-nun Ukraynada hərbi infrastrukturunu genişləndirməsinin Rusiya üçün "qırmızı xətt" olduğunu vurğulayıb. Putin bu barədə Moskvada keçirilən "Rusiya çağırır" tədbirindəki çıxışında Rusiyanın Ukraynaya hücuma hazırlaşdığına dair yayılan iddialarla bağlı danışarkən deyib. "Rusiyanın 2021-ci ilin əvvəlində Ukraynaya hücuma hazırlaşdığına dair iddialar yayılmışdı. Ancaq heç bir hücum olmadı. Biz keçmişdə NATO ilə, demək olar ki, müttəfiq idik, lakin bütün istəklərimizə baxmayaraq, onlar sərhədlərimizdə genişlənməyə davam etdilər", - Putin bildirib.

### Həftənin OLAYI



ABŞ-ın Miçiqan ştatının Oksford şəhərində məktəbdə baş verən atışma nəticəsində üç şagird həlak olub, altısı güllə yarası alıb. Bu barədə ştatın hüquq-mühafizə orqanları açıqlama yayıb. Bildirilib ki, atəşi 15 yaşlı tələbə açıb. Saxlanılan silahlı hücum edən şəxs yarıavtomat tapançadan 15-20 atəş açıb. Qeyd olunub ki, cinayətkar təkbaşına hərəkət edib. Hücum edən şəxs təslim olub, zabitlərə atəş açmayıb və özü də xəsarət almayıb.

### Həftənin ANIMI



"Google" dünya şöhrətli alim Lütfi Zadənin "Qeyri-səlis çoxluqlar" əsərini təqdim etməsinin il dönümü ilə bağlı dudl hazırlayıb. Dudlun üzərinə klik edərkən Lütfi Zadə ilə bağlı məlumatlar əldə etmək olur. Qeyd edək ki, L.Zadə 1964-cü il noyabrın 30-da "Qeyri-səlis məntiq" adlı innovativ riyazi çərçivəsi ilə dünyanı tanış edən "Qeyri-səlis çoxluqlar" əsərini təqdim edib.

### Həftənin UĞURU



Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq siyahısını açıqlayıb. İlk "10-luq"da Azərbaycanın bir təmsilçisi yer alıb. Xallarını 2767-yə çatdıran Şəhriyar Məmmədyarov 2 pillə irəliləyərək 9-cu sıraya yüksəlib. Teymur Rəcəbov isə 2753 xalla ötən ayla müqayisədə 1 pillə də geriləyib. O, 14-cü pillədə qərarlaşıb.

### Həftənin MİLLİ QƏHRƏMANI



Barbadosəsilli müğənni Rihanna bu ölkənin Milli Qəhrəmanı elan olunub. Bu barədə ölkənin Baş naziri Mia Mottli bildirib. "Almaz kimi parlamağa və ölkənin qüruru olmaqda davam et", - hökumət başçısı çıxışı zamanı deyib. Qeyd edək ki, noyabrın 30-da Barbados ada ölkəsi Böyük Britaniya Taxt-Tacının hökmranlığından çıxıb.

***Azad Əliyev***



# "Nar" gələcəyin İT peşəkarlarını yetişdirməyə davam edir

**"Nar", NMR Rabitə və Yeni Texnologiyalar nazirliyi ilə əməkdaşlıq çərçivəsində "Mobil rabitənin əsasları" təlimini ilk dəfə paytaxtdan kənarda həyata keçirib. Təlimdə Naxçıvan Dövlət universitetinin informasiya texnologiyaları üzrə müxtəlif ixtisaslarında təhsil alan tələbələr iştirak ediblər.**

Rabitə texnologiyaları mövzulu təlimdə iştirakçılar mobil şəbəkənin fəaliyyətini "Nar"ın texniki heyətinin real təcrübəsi əsasında öyrənir, suallarını birbaşa sahə üzrə mütəxəssislərə yönləndirə bilirlər. Telekommunikasiya sahəsi üzrə yerli kadrların hazırlanmasına dəstək məqsədilə davamlı olaraq keçirilən təlimlər "Nar"ın təhsilə dəstək korporativ məsuliyyət strategiyası çərçivəsində təşkil edilir. Təlimə bu günədək ümumilikdə, 200-dən çox tələbə qatılıb. Xatırladaq ki, regionlarda sosial layihələrin keçirilməsinə xüsusi önəm verən "Nar", bundan öncə də şəhid ailələrindən olan tələbələrə dəstək olmaq üçün NDU ilə birgə təqaüd proqramına start vermişdi. "Nar"ın digər sosial layihələri və KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az <https://www.nar.az-/news/> saytından əldə edə bilərsiniz.

# "Azercell" sosial şəbəkələrdə yarışma elan edir

**Bu il Azərbaycan Respublikasında telefon rabitəsinin yaradılmasının 140 ili tamam olur. Bu münasibətlə ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC abunəçiləri arasında müsabiqə elan edir.**




Müsabiqə rabitənin 140 illiyi münasibətilə Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliyinin təşkil etdiyi tədbirlər çərçivəsində keçirilir. "Rabitənin dünəni və bu günü" mövzusuna həsr olunmuş müsabiqə 28 noyabr-6 dekabr tarixləri arasında Azercell-in rəsmi sosial şəbəkə hesablarında keçiriləcək. Yarışma iştirakçıları təqdim olunan şəkillərdə gizlin detalları aşkara çıxarmaqla hədiyyə qazanacaqlar. "Gizlini aşkara çıxar, hədiyyəni apar" şüarı ilə keçiriləcək yarışma qeyd olunmuş zaman çərçivəsində abunəçilərə müxtəlif hədiyyələr qazanmaq imkanı verəcək.

Xatırladaq ki, Azərbaycanda ilk telefon xətti 1881-ci il noyabr ayının 23-də istismara verilib. Uzunluğu 6 km olan bu telefon xətti "Nobel qardaşlarının neft istehsalı şirkəti"-nin baş kontoru ilə sədr və baş mühəndisin evlərini birləşdirib. Elə həmin tarix ölkəmizdə rabitə əsrinin başlanğıcı kimi qəbul edilir. Azərbaycanda mobil rabitə sektorunun flaqmanı sayılan "Azercell Telekom" MMC-nin hazırladığı müsabiqələr hər zaman müasir cəmiyyətin, xüsusilə də gənclər arasında mütaliə mədəniyyətinin inkişafına, tariximizin öyrənilməsinə və təbliğatına xidmət edir. Müsabiqədə iştirak edin, həm maariflənin, həm də hədiyyə qazanın!

## GÜNÜN FOTOSU



**Əlilliyi olan şəxslərin XI Ümumrespublika Yaradıcılıq Sərgi-müsabiqəsi başlayıb...**

# Bəzi dərman vasitələri apteklərdən niyə yoxa çıxır...

**Rasif Bağırov,**
tibb eksperti

Bəzən hansısa məhsulu bazardan çıxarmaq üçün ona elə qiymət qoyurlar ki, nə həkim onu yaza bilir, nə də vətəndaş ala bilir.

Səh. 5

## STATİSTİKA



■ İnsanın qaraciyəri özündən bir saatda 100 litr qan buraxır.

■ İnsan beynində bir saniyədə 100 min kimyəvi reaksiya baş verir.

■ İnsanın saqqalı 7-15 min tükdən ibarətdir. O, ildə 14 santimetr uzanır.

■ Leykositlər orqanizmdə 3-4 gün, eritrositlər isə 3-4 ay yaşayır.




Səh. 6

# Uşaq qidaları və bezlər 35 faiz ucuzlaşa bilər